

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№ 41 (781) ■ 21 oktyabr 2015 www.vergiler.az Qiyməti: 40 qəp.


# Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana işgüzar səfəri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının Qazaxıstan Respublikasının Akmola vilayətinin Burabay qəsəbəsində keçirilən iclasında iştirak etmək üçün oktyabrın 15-də bu ölkəyə işgüzar səfərə gəlib. Azərbaycanın və Qazaxıstanın dövlət bayraqlarının dalğalandığı Kokşetau şəhərinin hava limanında dövlətimizin başçısını yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşılayıblar.

Oktyabrın 16-da MDB Dövlət Başçıları Şurasının növbəti iclası keçirilib. Əvvəlcə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirilib. İclasa sədrlik edən Qazaxıstan Prezidenti Nursultan Nazarbayev bildirib ki, ölkəsi qurum çərçivəsində dövlətlərarası əməkdaşlığın inkişaf etdirilməsinə çalışır. Postsovet məkanında 11 ölkənin əməkdaşlığı üçün gözəl meydan olduğunu diqqətə çatdıran Qazaxıstan Prezidenti müxtəlif məsələlərin müzakirəsinə əlverişli imkan yaradıldığını vurğulayıb: «Əminəm ki, bugünkü tədbir MDB-nin inkişafına öz töhfəsini verəcək, ölkələr arasında əməkdaşlığın daha da dərinləşməsinə kömək edəcək». İclasın gündəliyinə 17 məsələnin daxil olduğunu, tədbirin böyük bir hissəsinin təhlükəsizliyin və qanun-qaydaların təmin olunmasına həsr edildiyini söyləyən Nursultan Nazarbayev qeyd edib ki, bundan başqa, beynəlxalq sazişlər paketini imzalamaq, proqram sənədlərini təsdiq etmək, BMT-nin yaradılmasının 70 illiyi ilə əlaqədar beynəlxalq terrorizmlə mübarizəyə dair dövlət başçılarının bəyanatını qəbul etmək planlaşdırılır. Təqdim olunan sənədlərin praktik əhəmiyyət kəsb etdiyini deyən Nursultan Nazarbayev onu da bildirib ki, bu sənədlərin qəbulu və həyata keçirilməsi əməkdaşlığın daha da möhkəmlənməsinə töhfə olacaq.

Şuranın məhdud tərkibdə iclasında çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, MDB regionunda qarşılıqlı iqtisadi fəaliyyətin yeni formalarının axtarılması zəruridir: «MDB ölkələri arasında əmtəə dövriyyəsi azalıb. Dünyada baş verən müəyyən proseslər nəzərə alınsa, burada, əlbəttə, obyektiv amil var. MDB üzvü olan ölkələrin çoxunun milli valyutaları öz dəyərini itirib. Biz hesablaşmaları dollar ilə apardığımıza görə bu, təbii ki, statistikada dərhal mənfi işarə ilə öz əksini tapır. Buna görə mən də Vladimir Vladimiroviç Putinin hesablaşmaları milli valyutalarla aparmağa keçid məsələsinin araşdırılması ideyasına qoşulmaq istərdim. Bu, bizim fəaliyyətimizlə bağlı olmayan müəyyən maliyyə risklərindən yaxa qurtarmağa, həmçinin milli valyutalarımızı möhkəmlətməyə imkan verər, iqtisadi inteqrasiya işinə daha çox kömək edərdi. İqtisadi sahədə əməkdaşlığın yeni formalarının, həmçinin xüsusən zəngin təbii ehtiyatlara malik olan ölkələrdə yeni iqtisadi modelin möhkəmlənməsinin yeni formalarının axtarışı, əlbəttə, dövlətlərimizin gündəliyindədir. Düşünürəm ki, burada meydana çıxan riskləri minimuma endirmək üçün daha fəal məsləhətləşmələr, fikir və təcrübə mübadiləsi aparmaq olar».

Regionda yeni enerji-nəqliyyat dəhlizlərinin yaradıldığına diqqət çəkən dövlətimizin başçısı MDB dövlətlərini Azərbaycanın irəli sürdüyü təşəbbüslərə dəvət edib, yeni yaradılan Şərq-Qərb dəhlizinin region ölkələrinin daha sıx inteqrasiyasına imkan verəcəyinə əmin olduğunu vurğulayıb: «Biz «Şimal-Cənub» dəhlizinin layihəsi üzərində, ilk növbədə, Rusiya Federasiyası və İranla fəal işləyirik. Artıq ciddi razılaşmalar əldə olunub, bizim dəmir yolu magistrallarının birləşdirilməsi prosesinin sürətləndirilməsinə dair konkret qərarlar qəbul edilib. Bu layihə böyük maliyyə gəlirləri vəd edir. Bu magistral Çinin, Hindistanın, İranın, Azərbaycanın, Rusiyanın və Avropanın nəhəng bazarlarını birləşdirən ən rahat və ən qısa yoldur».



Regionda təhlükəsizlik tədbirlərinin möhkəmlənməsi məsələsinə toxunan Azərbaycan Prezidenti qeyd edib ki, terrorizmə qarşı mübarizədə bütün dünya birliyinin çoxplanlı əməkdaşlığı olmadan heç bir ölkə özünü tam təhlükəsiz hiss edə bilməz: «MDB ölkələri, hər halda bu ölkələrin əksəriyyəti beynəlxalq terrorizmin nə demək olduğunu öz üzərlərində hiss ediblər. Bu təhlükə bu gün region ölkələri üçün bilavasitə risklərin və bizim hamımız üçün potensial risklərin mənbəyidir. Buna görə də bugünkü mərhələdə beynəlxalq terrorizmə qarşı mübarizə bütün ölkələr üçün prioritet olmalıdır və biz yalnız səylərimizi birləşdirməklə qarşıya qoyulmuş məqsədlərə çata bilərik. Əlbəttə, risklərin minimuma endirilməsi, habelə beynəlxalq terrorizmi doğuran səbəblərin üzə çıxarılması, aşkar edilməsi istiqamətində çox işləmək lazımdır. Əlbəttə, bunun çox böyük kənar səbəbləri var, terroryönümlü müəyyən qruplar, qruplaşmalar maliyyələşdirilir. Amma, həmçinin daxili səbəblər də mövcuddur. Daxili səbəb isə yoxsulluq, savadsızlıq, gerilik, radikalizm, fundamentalizm, sosial ədalətsizlikdir. Əgər bu və ya digər ölkədə bu obyektiv səbəblər yoxdursa, orada xaricdən göstərilən bütün səylərə baxmayaraq terrorizmin yetişməsi üçün zəmin yaratmaq çox çətin olacaq. Buna görə də sosial-iqtisadi xarakterli məsələlərin, təhlükəsizliyin möhkəmləndirilməsi, terrorizmə qarşı mübarizə məsələlərinin həlli üzərində səylərin birləşdirilməsi - bütün bunlar bu gün ölkələrimizin əsas gündəliyini təşkil edir. Biz region ölkələri ilə sülh və həmrəylik şəraitində yaşamaq, inkişaf etmək, uşaqların savadlı, təhsilli, sağlam böyüməsini istəyirik. Bunun üçün bizə təhlükəsizlik lazımdır. Buna görə də Azərbaycan öz tərəfindən beynəlxalq terrorizmlə mübarizə üçün bundan sonra da bütün səylərini əsirgəməyəcək».

Məhdud tərkibli görüşdə MDB-nin gələcək inkişafı ilə bağlı cari məsələlər müzakirə edilib. Nursultan Nazarbayev bildirib ki, son vaxtlar dünyanın qlobal dəyişikliklərə məruz qaldığı zamanda MDB də həmin şəraitə uyğun fəaliyyət göstərməlidir. Buna görə, bugünkü iclasda müzakirə olunan məsələlərdən biri beynəlxalq vəziyyətdir. Qazaxıstan Prezidenti BMT-nin razılığı ilə ümumdünya terrorizmə qarşı mübarizə şəbəkəsinin yaradılmasının vacibliyini bildirib, bu sahədə MDB-nin antiterror mərkəzinin potensialından maksimum yararlanmağın zəruriliyini qeyd edib. Vurğulayıb ki, bu gün MDB dövlət başçılarının beynəlxalq terrorizmə qarşı BMT-nin yaradılmasının 70 illiyi münasibətilə qəbul etdiyi bəyanat olduqca əhəmiyyətlidir.

İclasda MDB-yə üzv ölkələrin Təhlükəsizlik və Xüsusi Xidmət Orqanları Şurası və Hava Hücumundan Müdafiə Koordinasiya Komitəsinin rəhbərlərinin namizədliyi təsdiqlənib.

MDB Dövlət Başçıları Şurasının iclası sənədlərin imzalanması mərasimindən sonra başa çatıb.

## RƏSMİ XRONİKA

### Gürcüstan-Azərbaycan münasibətləri strateji xarakter daşıyır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Gürcüstanın Baş nazirinin müavini, xarici işlər naziri Giorgi Kvirikaşvilini qəbul edib.

İlk rəsmi səfərini məhz Azərbaycana etməsindən məmnunluğunu bildirən gürcüstanlı diplomat ikitərəfli münasibətlərimizin yüksək səviyyədə olduğunu deyib, əməkdaşlığımızın müxtəlif sahələrdə inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb. Giorgi Kvirikaşvilinin sözlərinə görə, indiyədək iki dost ölkə arasında bütün sahələrdə daim qarşılıqlı anlaşma mövcud olub və bu, Azərbaycan-Gürcüstan əlaqələrinin strateji xarakter daşıdığına əyani sübutdur.

Dövlətimizin başçısı Gürcüstanın xarici işlər naziri vəzifəsində Giorgi Kvirikaşvilinin ilk xarici səfərini Azərbaycana etməsini ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin yaxşı göstəricisi kimi dəyərləndirib. Azərbaycan-Gürcüstan əməkdaşlığının siyasi, iqtisadi, humanitar və digər istiqamətlərdə fəal şəkildə davam etdirilməsinin zəruriliyini vurğulayan Prezident İlham Əliyev bu əməkdaşlığın bizi birləşdirən irimiqyaslı nəqliyyat, energetika və iqtisadi layihələrin həyata keçirilməsi baxımından əhəmiyyətini qeyd edib.

Görüşdə hər iki ölkə arasında həyata keçirilən birgə regional layihələrin, o cümlədən «Cənub» qaz dəhlizi və Bakı-Tbilisi-Qars dəmir yolu layihələrinin beynəlxalq əhəmiyyəti barədə söhbət açılıb, bu layihələrin icrası ilə bağlı koordinasiya məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

### Əməkdaşlığın inkişafı üçün münbit baza mövcuddur

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Kosta-Rika Respublikasının xarici işlər və etiqad naziri Manuel Qonzales Sanzı qəbul edib.

Ölkələrimiz arasında çox yaxşı siyasi əlaqələrin mövcud olduğunu deyən Prezident İlham Əliyev nazir Manuel Qonzales Sanzın ölkəmizə səfərini əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirib. Mövcud əməkdaşlığın inkişaf etdirilməsi üçün hazırda yaxşı imkanların olduğunu qeyd edən dövlətimizin başçısı Azərbaycanın ikitərəfli münasibətləri genişləndirməkdə maraqlı olduğunu vurğulayıb, əlaqələrimizin gələcəkdə müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadiyyat, enerji, sərmayə qoyuluşu, ticarət, mədəniyyət və digər sahələrdə genişləndirilməsinin vacibliyini qeyd edib.

Manuel Qonzales Sanz indiyədək Azərbaycana Kosta-Rikadan ən yüksək səviyyəli dövlət nümayəndəsi kimi səfər etməsindən məmnunluğunu bildirib. O, Bakıda gördüyü sürətli inkişaf proseslərinin, paytaxtımızda həyata keçirilən abadlıq və quruculuq işlərinin onda böyük təəssürat yaratdığını deyib. Nazir, öz növbəsində, ölkəsinin Azərbaycan ilə əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsində maraqlı olduğunu bildirib.

# Azərbaycan regionun «sabitlik adası»dır

Fransanın «Opinionway» araşdırma şirkəti Milli Məclisə seçkilər ərəfəsində Azərbaycanda ictimai rəy sorğusu keçirib. Respondentlərin 63 faizi noyabrın 1-də keçiriləcək parlament seçkilərində mütləq iştirak edəcəyini, 12 faizi ola bilsin iştirak edəcəyini, 7,7 faizi ola bilsin iştirak etməyəcəyini, 9 faizi iştirak etməyəcəyini bildirib, 8,3 faizi isə bu barədə hələ qərar vermədiyini deyib.

«Milli Məclisə keçiriləcək seçkilərdə hansı siyasi qüvvənin namizədini dəstəkləmək fikrindəsiniz» sualına rəyi soruşulanların 71,7 faizi iqtidar partiyasının və iqtidaryönümlü partiyaların namizədlərini, 6 faizi müxalifət partiyalarının namizədlərini, 16,4 faizi bitərəf namizədləri dəstəkləyəciyini deyib, 5,9 faizi isə cavab verməkdə çətinlik çəkib.

«Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyəti Sizi nə dərəcədə qane edir» sualını respondentlərin 78,8 faizi «çox qane edir» deyə cavablandırıb. Ölkənin səsvermə hüququ olan 1200 vətəndaşı arasında aparılan sorğunun nəticələrinə görə, respondentlərin 71,4 faizi Azərbaycanda milli təhlükəsizliyin təmin olunmasından, 71,2 faizi korrupsiya ilə, 68,4 faizi cinayətkarlıqla mübarizədən, 69,8 faizi insan hüquqlarının vəziyyətindən çox razı qaldığını deyib. Rəyi soruşulanların 66,5 faizi hazırda Azərbaycanın ən vacib probleminin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi olduğunu bildirib.

Amerikanın nüfuzlu «Arthur J. Finkelstein & Associates» ictimai rəyin öyrənilməsi beynəlxalq mərkəzi də Azərbaycan əhalisi arasında qarşıdan gələn parlament seçkiləri ilə bağlı keçirdiyi sorğunun nəticələrini dərc edib.

Bu rəy sorğusunda da respondentlərin əksəriyyəti ölkənin düzgün istiqamətdə irəlilədiyini və onları narahat edən əsas problemin Dağlıq Qarabağ münaqişəsinin indiyədək həll olunmamasıdır. Geosiyasi məsələlərlə bağlı respondentlərin 81,7 faizi Azərbaycanı regionda «sabitlik adası» adlandıraraq, bəzi region ölkələrinin isə hazırda qeyri-sabit durumda olduğunu bildiriblər.

Respondentlərin 71 faizi ölkə rəhbərliyinin Azərbaycanda immiqrasiya böhranının yayılmasının qarşısını almağa hazır olduğunu vurğulayıb. Rəyi soruşulan vətəndaşların 80 faizindən çoxu qeyd edib ki, Qərb partnyorları ilə təhlükəsizlik sahəsində əməkdaşlıq edən dövlət rəhbərliyi ölkəni terrorizmdən uğurla müdafiə edir.

*Respondentlərin 82,1 faizi «yaxşı» və «əla» cavablarını verməklə, Prezident İlham Əliyevin fəaliyyətini bəyəndiklərini bildiriblər*

Sorğunun nəticələrinə görə, seçicilərin 74,4 faizi öz seçimini müəyyən edərək Yeni Azərbaycan Partiyasının namizədlərinin üstün tutublar. Respondentlərin 82,1 faizi «yaxşı» və «əla» cavablarını verməklə, Prezident İlham Əliyevin fəaliyyətini bəyəndiklərini bildiriblər.

## BU NÖMRƏMİZDƏ


VERGİ MƏCƏLLƏSİNƏ DƏYİŞİKLİKLƏR VERGİ ÖDƏYİCİLƏRİNİN HÜQUQLARININ GENİŞLƏNDİRİLMƏSİNƏ XİDMƏT EDƏCƏK 2

VEBİNARLAR MƏSAFƏDƏN ƏMƏKDAŞLIĞA ŞƏRAİT YARADIR 3

LİSENZİYALARIN ÇOXLUĞU SAHİBKARLIĞIN İNKİŞAFINA MANE OLUR 4

HÜQUQİ ŞƏXSİN LƏĞV OLUNMASI 5

# Vergi Məcəlləsinə dəyişikliklər vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsinə xidmət edəcək



## Milli Məclisin oktyabrın 20-də keçirilən iclasında «Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər edilməsi haqqında» qanun layihəsi qəbul edilib

Oktyabrın 16-da Milli Məclisin İqtisadi siyasət komitəsinin iclasında «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» qanun layihəsi müzakirə edilib. İclasda çıxış edən komitə sədri Ziyad Səmədzadə Azərbaycan iqtisadiyyatının inkişafından, Vergi Məcəlləsində dəyişikliklərin vacibliyindən danışıb, bu dəyişikliklərin, əsasən, sahibkarlığın inkişafına dəstək məqsədi daşıdığını vurğulayıb.

Komitənin iclasında çıxış edən vergilər naziri Fazil Məmmədov bildirib ki, bu dəyişikliklərin əksəriyyəti vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsinə, vergi yükünün azaldılmasına, vergi inzibatçılığının təkmilləşdirilməsinə və büdcə daxilolmalarının artımına yönəlib. Vergi Məcəlləsi və ona əlavə olunan qanunvericilik aktlarındakı dəyişikliklər oktyabrın 12-də Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycan Prezidenti İlham Əliyevin dövlət orqanları qarşısında qoyduğu vəzifələr, eyni zamanda biznes mühitinə verdiyi tövsiyələr ruhunda hazırlanıb.

Vergilər nazirinin sözlərinə görə, fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəliri 2500 manatadək olduqda ölkə üzrə yaşayış minimumunun 1 misli, illik gəliri 30000 manatadək olduqda ölkə üzrə yaşayış minimumunun 12 misli məbləğində olan hissəsinə gəlir vergisindən vergi güzəştinin tətbiqi məqsədilə Vergi Məcəlləsinin 102.1.6-cı maddəsinə dəyişiklik edilməsi təklif olunur. Qanunvericiliyə edilən dəyişiklik ölkədə həyata keçirilən sosial siyasətə uyğun olaraq, əhalinin maddi rifahının yaxşılaşmasına müsbət təsir göstərməklə yanaşı, əməkhaqlarının leqallaşdırılmasını da təşviq edəcək.

Bildirilib ki, 2012-ci il yanvarın 1-dən qanunvericiliklə müəyyən edilmiş qaydada keçirilən idman mərc oyunlarından əldə olunan uduşların gəlir vergisindən azad edilməsi təklif olunub. Bu sahəyə vergi güzəştinin tətbiqi ötən 3 il ərzində ölkədə keçirilən idman mərc oyunlarının inkişafının stimullaşdırılması ilə nəticələnib. Bu da həmin sahədə əldə olunan uduşların vergiyə cəlb edilməsini zəruri edir. Qanun layihəsinə əlavə edilib ki, idman mərc oyunlarından əldə olunan uduşlardan 10 faiz dərəcə ilə vergi tutulur.

Nazirin sözlərinə görə, Vergi Məcəlləsinin qüvvədə olan 164.2-ci maddəsinə əsasən, Nazirlər Kabineti konkret sahənin inkişafını təmin etməklə konkret dövr üçün nəzərdə tutulan istehsal ehtiyaclarını yerli xammal hesabına ödəmək mümkün olmadıqda, istehsal təyinatlı xammal və müvafiq texnologiyanı təmin edən avadanlıqların idxalını əlavə dəyər vergisindən azad edə bilər. Bununla əlaqədar olaraq, Nazirlər Kabinetinin 31 yanvar 2005-ci il tarixli 11 nömrəli qərarı ilə Azərbaycan Respublikası ərazisinə gətirilən əlavə dəyər vergisindən azad olunan malların siyahısı təsdiq edilib. Qanun layihəsində qeyd olunan azadolmaların ləğv edilməsi və həmin qərarda nəzərdə tutulan bir sıra mallar üzrə azadolmaların Vergi Məcəlləsinin 164.1-ci maddəsinə əlavə edilməsi təklif olunur.

Diqqətə çatdırılıb ki, son illər ölkəmizdə İKT sahəsində əldə edilmiş nailiyyətlər sırasında «Azerspace-1» telekommunikasiya peykinin uğurla orbitə çıxarılmasının xüsusi yeri var. Dünya peyk xidmətləri bazarında yüksək rəqabət mühiti mövcuddur ki, burada «Azərkosmos» ASC kimi yeni bazar iştirakçılarına rəqabətədavamlı fəaliyyət göstərmək üçün müəyyən vaxt tələb olunur. Qanun layihəsində peykin və digər kosmik obyektlərin əmlak vergisindən azad edilməsi təklif olunur. Layihədə məhsul ötürən kəmərlərin əmlak vergisinə cəlb olunması təklif edilib. Bildirilib ki, qanun layihəsi ilə ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərə, dövriyyəsindən asılı olmayaraq, sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ verilir. Layihəyə əsasən, ticarət fəaliyyəti ilə məşğul olan şəxslər əldə edilən ümumi hasilatın həcmindən 6 faiz, ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər isə 8 faiz dərəcə ilə sadələşdirilmiş vergini ödəməlidirlər. Qanun layihəsində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərə sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququnun verilməsi də nəzərdə tutulur. Həmin vergini ödəyən hüquqi şəxslər əlavə dəyər vergisinin, mənfəət vergisinin və əmlak vergisinin, fiziki şəxslər isə əlavə dəyər vergisinin və gəlir vergisinin ödənilməsindən azad olunurlar. Qeyd edilib ki, layihəyə aksiz markaları ilə markalanmalı malların Azərbaycan ərazisində dövriyyəsinin tənzimlənməsi ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən qaydaların tələblərinə əməl olunmasına nəzarət etmək maddəsi əlavə olunub.

Vergilər naziri Fazil Məmmədov məcəlləyə təklif olunan digər dəyişikliklər barədə də ətraflı məlumat verib. İclasda çıxış edən deputatlar, mövcud iqtisadi şərait nəzərə alınmaqla, dəyişikliklərin vacibliyini qeyd ediblər.

***Milli Məclisin oktyabrın 20-də keçirilən iclasında «Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər edilməsi haqqında» qanun layihəsi qəbul edilib.***

**Rəşad SADIQOV**

# Milli Məclisdə 2016-cı ilin dövlət büdcəsi qəbul edildi

Milli Məclisdə «Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsi haqqında» qanun layihəsinin müzakirəsi zamanı qeyd edilib ki, Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyev geniş və əhatəli nitqində 2016-cı ilin dövlət büdcəsinin necə formalaşması, vəsaitin hansı istiqamətlərə xərclənməsi, iqtisadiyyatın hansı sahələrinə daha çox diqqət yetirilməsi ilə bağlı bütün məsələlərə münasibətini bildirib. Qeyd olunub ki, orta və kiçik sahibkarlığın inkişafı ilə bağlı məsələlərə daha ciddi yanaşılmasının vacibliyini bildirən dövlət başçısının mövqeyinə görə, sosial məsələ prioritet olduğu və yürüdülən siyasətin mərkəzində insan amili dayandığı üçün atılan addımlar ilk növbədə vətəndaşların rifah halının daha da yaxşılaşdırılmasına xidmət etməlidir.

Sonra iclasın gündəliyində olan «Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2016-cı il büdcəsi haqqında» qanun layihəsinə baxılıb. Milli Məclisin Sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli çıxışında bildirib ki, gələn il üçün Fondun gəlirləri 3 milyard 79 milyon manat nəzərdə tutulur. 2016-cı ildə gəlirlərin 64 faizinin və ya 1 milyard 972 milyon 200 min manatının sosial sığorta yığımları hesabına təmin ediləcəyi proqnozlaşdırılır. Sosial sığorta haqları üzrə daxilolmaların 1 milyard 325 milyon 740 min manatı qeyri-büdcə təşkilatlarının payına düşür ki, bu da əvvəlki illərdə olduğundan 1,8 dəfə çoxdur.

Daha sonra «Azərbaycan Respublikasında 2016-cı il üçün yaşayış minimumu haqqında» qanun layihəsinə baxılıb. Bildirilib ki, layihədə 2016-cı il üçün yaşayış minimumu ölkə üzrə 136 manat, əmək qabiliyyətli əhali üçün 146 manat, pensiyaçılar üçün 115 manat, uşaqlar üçün 117 manat məbləğində müəyyən edilib.

«Azərbaycan Respublikasında 2016-cı il üçün ehtiyac meyarının həddi haqqında» qanun layihəsinin müzakirəsində isə qeyd olunub ki, ünvanlı sosial yardımın təyin edilməsi məqsədilə 2016-cı il üçün ehtiyac meyarının həddi 105 manat məbləğində müəyyənləşdirilib. İclasda «Dövlət rüsumu haqqında» Qanunda dəyişikliklər edilməsi barədə layihəyə baxılıb və 4.1-ci maddə yeni redaksiyada verilib: «Bu Qanunla nəzərdə tutulan xidmətlərə və hüquqi hərəkətlərə görə ödənilən dövlət rüsumunun 25 faizi həmin xidmətləri və hüquqi hərəkətləri həyata keçirən işçilərin maddi təminatını yaxşılaşdırmaq məqsədilə dövlət rüsumu ödənilən orqanların xüsusi hesabına köçürülür, qalan hissəsi isə tam məbləğdə dövlət büdcəsinə ödənilir».

***Milli Məclisin oktyabrın 20-də keçirilən plenar iclasında «Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsi haqqında» qanun layihəsi qəbul edilib.***

**R.SADIQOV**




# Bütün lisenziyalar «ASAN xidmət» mərkəzlərində veriləcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının yekunlarına dair iclasındakı çıxışında sahibkarlıq sahəsində yoxlamalardan çoxsaylı şikayətlərin daxil olmasını, yoxlamaların, eləcə də lisenziyaların sayının həddindən artıq çox olmasını, göstərilən sahədə sui-istifadə hallarını qeyd edib, belə halların qarşısının alınacağını, nəticə çıxarmayanların cəzalandırılacağını bildirib.

Verilən tapşırıqlara uyğun olaraq, 2015-ci il oktyabrın 19-da dövlət başçısı tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasını nəzərdə tutan qanun layihəsi göndərilib. Qanun layihəsinə əsasən, 2015-ci il noyabrın 1-dən etibarən sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 il müddətinə dayandırılır.

Dörd maddədən ibarət layihəyə əsasən, bu müddətdə yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamalar aparıla bilər. Bu yoxlamalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla həyata keçiriləcək. Layihədə o da göstərilib ki, qanunun müddəaları korrupsiya cinayətlərinin araşdırılması ilə əlaqədar Baş Prokurorluq tərəfindən aparılan yoxlamalara şamil edilmir.

Eyni zamanda, Prezident İlham Əliyev tərəfindən imzalanmış fərmanla lisenziyaların sayının minimuma endirilməsi, lisenziya verilməsi qaydalarının sadələşdirilməsi və şəffaflığın təmin edilməsi, sahibkarlıq fəaliyyəti ilə bağlı bütün lisenziyaların İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən «ASAN xidmət» mərkəzlərində verilməsi nəzərdə tutulub.

# Ciddi nöqsanlara yol vermiş vergi əməkdaşı işdən azad olunub

Vergilər Nazirliyinin 2 saylı Ərazi Vergilər Departamentinin operativ nəzarət şöbəsinin dövlət vergi müfəttişi Ramil Məhyəddin oğlu Babayev öz vəzifə funksiyalarının icrası zamanı bir sıra ciddi nöqsanlara yol verdiyinə görə, tutduğu vəzifədən azad edilmişdir.

Vətəndaş müraciətlərinin araşdırılması ilə bağlı aparılmış təhlillər və daxili nəzarət tədbirləri nəticəsində R.Babayevin məsuliyyət dairəsinə aid olan ərazidə vergi ödəyiciləri ilə işlərin düzgün qurulmadığı aşkar edilmişdir. Mövcud qaydaların tələblərinə zidd olaraq, o, bəzi hallarda yoxlama materiallarının araşdırılmasında vergi ödəyicilərinin iştirakını təmin etməmiş, yoxlama materialları əsasında çıxarılmış qərarları və tələbnamələri vergi ödəyicilərinə göndərməmiş, qanunsuz idman mərc oyunlarının keçirilməsinə, müvafiq icra hakimiyyəti orqanından lisenziya almadan alkoqollu içkilərin satılmasına və aksiz markası ilə markalanmadan tütün məmulatlarının satılmasına, habelə vergi orqanlarında uçota alınmadan və nəzarət-kassa aparatı quraşdırmadan fəaliyyət göstərən vergi ödəyicilərinə qarşı qanunla müəyyən edilmiş tədbirlər görməmişdir.

Son bir neçə ay ərzində analoji nöqsanlara görə töhmət və sonuncu xəbərdarlıq edilməklə ona şiddətli töhmət verilmişdir. İnzibati tənbeh cəzalarından düzgün nəticə çıxarmadığı nəzərə alınaraq, vergilər nazirinin 16 oktyabr 2015-ci il tarixli əmri ilə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 70-ci maddəsinin «c» bəndinə və «Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin 46-cı maddəsinin 5-ci hissəsinə əsasən, R.Babayevin vergi orqanlarında xidmətinə xitam verilmişdir.

# Vergilər Nazirliyinin Çağrı Mərkəzinə daxil olmuş müraciətlər

2015-ci ilin 9 ayında Vergilər Nazirliyinin Çağrı Mərkəzinin əməkdaşları tərəfindən canlı əlaqə zamanı 149.612 müraciət cavablandırılmışdır. Müraciətlərin 29,7%-i vergilər, 20,3%-i vergi nəzarəti tədbirləri, 16,9%-i vergi orqanlarının hüquq və vəzifələri, qalanları isə digər məsələlər barədə olmuşdur.

Hesabat dövründə səsli menyu vasitəsilə məlumat almaq üçün Çağrı Mərkəzinə 33.015 zəng daxil olmuş, 22.318 zəng zamanı vergi borcları, 10.697 zəng zamanı isə vergilərin növləri ilə bağlı suallar cavablandırılmışdır. Vergi ödəyicilərinin məlumatlandırılması məqsədilə onlara 1.367.469 mesaj, o cümlədən 1.367.469 qısa mesaj (SMS) göndərilmişdir. Hesabat dövründə Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə 3,3 milyona yaxın daxilolma qeydə alınmışdır. Bu müddət ərzində vergi ödəyicilərinə xidmət strukturlarında 285.104 müraciət qeydə alınmış, müraciət edənlərə 418.805 sayda, o cümlədən Vergilər Nazirliyinin Bakı şəhərindəki Vergi ödəyicilərinə xidmət mərkəzinə müraciət etmiş 24.765 şəxsə 37.049 sayda xidmət göstərilmişdir.

# Vebinarlar məsafədən əməkdaşlığa şərait yaradır



*Müsahibimiz Niderland Krallığının Vergi və Gömrük Administrasiyasının Təlim Akademiyasının proqram meneceri Albert van Tuildir*

***- Niderland vergi sahəsində inkişaf etmiş ölkələrdəndir. Məhz buna görə də Azərbaycanda «E-audit» Tvinninq layihəsinin tərəfdaşı kimi Niderland Krallığının Vergi Administrasiyası seçilmiş və 2011-ci ilin mart ayından bu layihənin icrasına başlanılmışdır. Layihə ilə bağlı nə deyə bilərsiniz?***

- Böyük perspektivlərə malik bu layihə vergi auditi sahəsində inzibatçılığın ən yüksək beynəlxalq standartlara uyğunlaşdırılmasını nəzərdə tutur. Layihənin icrası məqsədilə e-auditin tətbiqi sahəsində Avropada ən qabaqcıl təcrübəyə malik ölkələrdən biri kimi Niderland Krallığının Vergi və Gömrük Administrasiyasının seçilməsi bizim üçün çox qürurverici hadisədir. Birlikdə reallaşdırdığımız layihə çərçivəsində əldə etdiyimiz təcrübə - elektron audit sistemi ölkələrimizin vergi sistemini yeni, daha müasir texnologiyalara əsaslanan inkişaf mərhələsinə çıxararaq, regionun ən müasir audit-vergi sisteminə malik olmağımıza şərait yaradır.

Azərbaycanda çox olmuşam. Bu ölkənin Vergilər Nazirliyinin islahatlara açıq, innovasiyaları tətbiq etmək üçün necə fəal çalışdığının şahidiyəm. Elektron vergi bəyannamələrinin tətbiqinin genişlənməsi, e-terminalların sayının artırılması vergi sektorunun çevikliyini göstərir. İslahatların davamlılığı şəraitində Azərbaycanın vergi sisteminin daha da inkişaf edəcəyinə əminəm.

***- Elektron auditin tətbiqində əsas məqsəd nədən ibarətdir?***

- Hər iki tərəfdən peşəkar ekspertlərin cəlb edildiyi Tvinninq layihəsinin reallaşdırılması sayəsində vergi sistemində inzibatçılığın ən yüksək beynəlxalq standartlara uyğunlaşdırılmasına çalışmışıq. E-auditin əsas məqsədi odur ki, vergi intizamı artsın, vergidən yayınan vergi ödəyicilərinin qarşısı alınsın və vergidən yayınma hallarının tam aşkar olunması üçün vergi orqanlarına müvafiq şərait yaradılsın. E-audit sisteminin reallaşdırılması iri və orta müəssisələrin audit yoxlamaları sahəsində müvafiq strukturların texnoloji, metodik, analitik və insan resursları baxımından təkmilləşdirilməsinə, e-bəyannamələrin tətbiqi ilə yanaşı, müəssisələrdə mühasibat uçotunun elektron formatda aparılmasına geniş imkan yaradır. Azərbaycanda e-audit sisteminin inkişafı, elektron xidmətlərin tətbiqinin genişləndirilməsi ilə bağlı həyata keçirilən davamlı tədbirlər digər yeni informasiya texnologiyalarının da tətbiqinə səbəb olacaq. Yeni elektron xidmətlər vergi xidməti strukturları arasında informasiya mübadiləsini, məlumatların işlənməsini, bəyannamələrin qəbulunu və qeydiyyatını sürətləndirməyə və avtomatlaşdırmağa, sənədlərin sistemdaxili dövriyyəsinin tam şəkildə elektronlaşdırılmasına imkan verəcək.

*Azərbaycanda e-audit sisteminin inkişafı, elektron xidmətlərin tətbiqinin genişləndirilməsi ilə bağlı həyata keçirilən davamlı tədbirlər digər yeni informasiya texnologiyalarının da tətbiqinə səbəb olacaq*

Layihə çərçivəsində Niderland Krallığının Vergi Administrasiyasının Azərbaycanın Vergilər Nazirliyi ilə kifayət qədər səmərəli əməkdaşlıq münasibətləri qurulmuşdur. E-audit Tvinninq layihəsinin qrafikinə uyğun olaraq, son iki ildə həyata keçirilən layihələr və təlim kursları, qarşılıqlı səfərlər, hazırlanmış əyani tədris vəsaitləri və texniki proqramlar qənaətbəxş hesab oluna bilər. Avropa Birliyinin maliyyə dəstəyi ilə gerçəkləşdirilən layihə Azərbaycanın vergi sisteminin daha da təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində mühüm addımlardan sayılır. Niderland Krallığı və Azərbaycanın vergi orqanları rəhbərlərinin 2011-ci ilin aprelində keçirilmiş ilk işgüzar toplantısında layihənin icra mexanizmləri, habelə birgə fəaliyyət istiqamətləri müəyyənləşdirilmiş, hər bir mərhələ üçün nəzərdə tutulan tədbirlər uğurla gerçəkləşdirilmiş, maksimum səmərəli nəticələr əldə olunmuşdur. Layihə çərçivəsində Niderland Krallığının Vergi Administrasiyasının e-audit sahəsində təcrübəsi, burada istifadə edilən informasiya texnologiyaları sistemləri, müasir audit modelləri və metodları Vergilər Nazirliyinin bir qrup əməkdaşı tərəfindən öyrənilir. Qeyd etmək lazımdır ki, bu sahədə tədris kurslarının böyük əhəmiyyəti var. Azərbaycanın vergi xidməti əməkdaşları Niderland, Avstriya və Estoniyada təşkil olunmuş təlim kurslarında yüksək fəallıq nümayiş etdirir, zəruri bilik və vərdişlərə yiyələnirlər.

Layihə çərçivəsində audit üzrə Azərbaycanca-ingiliscə lüğət, e-auditin tətbiqi, habelə təlimçilər üçün təlimlər, treninq materiallarının kompakt diskləri, tövsiyə xarakterli hesabatlar, vergi auditinin keçirilməsi barədə kitab hazırlanmışdır.

***- Vergi ödəyiciləri ilə əməkdaşlığın müasir səviyyədə qurulması və e-auditdə horizontal monitorinqin əhəmiyyəti nədən ibarətdir?***

- Niderland Krallığı Vergi Administrasiyasının nümayəndəsi olaraq onu deyə bilərəm ki, bu kontekstdə horizontal monitorinq beynəlxalq təcrübədə vergi orqanları tərəfindən vergi ödəyiciləri ilə münasibətlərin təkmilləşdirilməsi məqsədilə tətbiq edilən qeyri-ənənəvi vergi nəzarəti metodudur. Müasir dövrün beynəlxalq vergi mühitinin fərdi vergi ödəyiciləri, biznes subyektləri və vergi administrasiyalarının müstəqil fəaliyyət göstərməsi üçün yaratdığı çətinliklərə cavab vermək üçün vergi administrasiyaları davamlı olaraq tələblərə əməletmə proqramlarını təkmilləşdirir və resurslardan daha səmərəli istifadə etməyə çalışırlar. Hazırda vergi administrasiyaları tərəfindən müxtəlif kateqoriyalı vergi ödəyiciləri ilə tələblərə əməletmə risklərinin səmərəli idarə olunması məqsədilə qarşılıqlı əməkdaşlığa söykənən münasibətlərin formalaşdırılmasına daha çox diqqət yetirilir. Burada əsas məqsəd hər iki tərəf üçün faydalı ola biləcək vergi risklərinin idarə olunmasının və ümumi əməletmənin təkmilləşdirilməsinə xidmət edən birgə həll yollarının tapılmasıdır.

Hazırda Niderlandda geniş tətbiq olunan horizontal monitorinqin əsas üstünlüyü və məqsədi vergi ödəyicilərinin vergi öhdəliklərini hər hansı əməliyyatı həyata keçirməzdən əvvəl müəyyən etmək və bununla da apardığı əməliyyat nəticəsində yaranacaq vergi öhdəliyini öncədən müəyyənləşdirməkdir. Horizontal monitorinq həm də vergi orqanının ödənilməsi nəzərdə tutulan vergi öhdəlikləri barədə əvvəlcədən məlumat əldə etməsinə imkan yaradır.

***- Niderland Krallığında vergi sahəsində hansı yeniliklər mövcuddur?***

- Ölkəmizdə rəqəmli vergi-mühasibat hesabları sistemindən çox istifadə edilir. Bütün xarici dövlətlərdə olduğu kimi, bizdə də bu sahədə vergi ödəyicilərinin sayının çoxaldılmasına çalışırıq. Vebinarlardan istifadəyə üstünlük verilməsinin səbəbi isə bunun böyük imkanlara malik olması, uzaq məsafədən əməkdaşlığa, ölkəxarici münasibətlərin inkişafına təsir etməsi ilə bağlıdır.

***- Niderlandın IOTA miqyasında nə kimi layihələri olmuşdur?***

- IOTA-nın 16-cı Baş Assambleyası 5-6 iyul 2012-ci il tarixlərində Norveç Krallığının Vergi Administrasiyasının təşkilatçılığı ilə Oslo şəhərində keçirilmişdir. Bu, çox böyük tədbir və uğurlu layihə idi. Baş Assambleyanın əsas mövzusu «Yaxşı idarəetmə - vergi administrasiyaları üçün reaktiv yanaşmadan proaktiv yanaşmaya keçid yolu» idi. Tədbir zamanı vergi ödəyiciləri tərəfindən əməletmənin təmin olunmasının yeni yolları, proaktiv liderlik və mədəniyyət üçün düzgün mühitin formalaşdırılması, informasiya və kommunikasiya texnologiyalarının yeni inkişafı və istifadəsinin vergi administrasiyasının gələcək fəaliyyətinə necə təsir göstərə bilməsi kimi məsələlər müzakirə olunmuşdur. Tədbirin keçirilməsinə hazırlıqla bağlı IOTA prezidenti də Niderlanda gəlmiş və bütün işlərə şəxsən nəzarət etmişdir.

**Hazırladı:**
**Fəxriyyə İKRAMQIZI**

# Yeni elektron imza platforması işə salınır

Hazırda Avropa İttifaqı ölkələrində vətəndaş cəmiyyətinə və biznes sektoruna göstərilən əsas elektron xidmət növlərinin əksəriyyəti, o cümlədən rəsmi sənədlərin verilməsi, vergi və gömrük bəyannamələrinin, statistik hesabatların təqdim olunması, məşğulluq orqanları vasitəsilə iş axtarışı, ali məktəblərə və dövlət qulluğuna qəbul üzrə test imtahanlarında iştirak etmək üçün elektron ərizələrin qəbulu və s. ölkəmizdə də tətbiq edilməkdədir. Elektron xidmətlərin təkmilləşdirilməsi, yeni xidmətlərin istifadəyə verilməsi üçün hazırda davamlı işlər aparılır. Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzinin (MHM) e-Gov.Identity - yeni mobil eyniləşdirmə (identifikasiya) platformasını tətbiq üçün hazırlaması da bunu əks etdirir.

«ELEKTRON HÖKUMƏT» QURUCULUĞUNUN ƏSAS MƏQSƏDİ XİDMƏTLƏRİN GÖSTƏRİLMƏSİ ÜÇÜN DÖVLƏT QULLUQÇULARI İLƏ VƏTƏNDAŞLAR ARASINDA OLAN «MƏSAFƏNİ» MAKSİMUM AZALTMAQ, BU MÜNASİBƏTLƏRİ SADƏLƏŞDİRMƏK VƏ ŞƏFFAFLAŞDIRMAQDIR



MHM-in Veb-proqramlaşdırma şöbəsinin müdiri Emin Novruzovun sözlərinə görə, abonentin telefonuna bağlı olacaq e-Gov.Identity platforması loqin və şifrə, yaxud Elektron Hökumət» Portalına (e-gov.az) giriş üçün istifadə edilən elektron imzadan ibarətdir: «Əvvəlcə elektron xidmətlər və müxtəlif ödəniş resurslarına, məsələn, «Hesab.az» və ya «ASAN Pay»a giriş üçün yalnız identifikatorun yaradılması nəzərdə tutulurdu. Sonradan «e-Gov.Identity»yə elektron imza funksiyasının əlavə edilməsi qərara alındı ki, bu da mobil eyniləşdirmə platformasını daha funksional edir və elektron sənədləri imzalamaq imkanı yaradır».

Qeyd edək ki, yeni platformanın kart oxuyucusuna ehtiyacı yoxdur və istifadəsi üçün «sim-kart»ın dəyişdirilməsi tələb olunmur. Sadəcə, «e-gov.az» portalında qeydiyyatdan keçərək loqin və şifrə almaq, yaxud mövcud elektron imza kifayət edir. MHM rəsmisi bildirib ki, aktivləşdirmə SMS üzrə həyata keçiriləcək, bundan sonra istifadəçiyə xüsusi eyniləşdirmə nömrəsi göndəriləcək: «İstifadəçi həmin nömrəni sonra dəyişə biləcək. Perspektivdə aktivləşdirməni USSD komandası üzrə həyata keçirmək də mümkün olacaq».

Bundan başqa, istifadəçilərə müxtəlif elektron xidmətlərə təhlükəsiz çıxış əldə etməyə və elektron sənədlərin imzalanması üzrə əməliyyat aparmağa imkan verən servis təqdim olunacaq. Mobil eyniləşdirmə platformasına xidmət göstərilməsi üçün yeni sertifikasiya mərkəzi yaradılacaq. İlkin mərhələdə xidmətin pulsuz göstərilməsi planlaşdırılır.

**F.İKRAMQIZI**



**Akif Musayev**
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

## Vergi inzibatçılığının funksional prinsip əsasında təşkili

Vergi inzibatçılığının dünyada ən geniş yayılmış bu metodunun əsas xüsusiyyətlərindən biri budur ki, vergi orqanının idarəetmə strukturunda bütün vergi növlərinin inzibatçılığı üçün ümumi olan funksiyalar həyata keçirən bölmələr yaradılır. Belə struktur bölmələrə vergi ödəyicilərinin qeydiyyatı və uçotunu, vergi bəyannamələrinin qəbulu və işlənilməsini, vergi borclarının alınmasını, vergi yoxlamalarının aparılmasını həyata keçirən struktur vahidləri aid etmək olar. Bu qaydada təşkil olunmuş idarəetmə sisteminin bütün struktur bölmələrinin rəhbər vəzifəli şəxsləri vergi administrasiyasının rəhbərinə tabe olurlar.

Vergi inzibatçılığının funksional prinsipi üzrə təşkili metodunu tətbiq edən ilk ölkələrdən biri ABŞ olmuşdur. Hələ XX əsrin əvvəllərində vergi inzibatçılığı bu ölkədə «vergilər üzrə» prinsipi əsasında təşkil edilirdi. O zaman ABŞ-ın Daxili Gəlirlər Xidmətində Gəlir vergisi idarəsinin yaradılması bu növ gəlirin tətbiqindən dərhal sonra, Məşğulluqdan verginin tətbiqi idarəsi isə sosial sığorta haqqında qanunun tətbiqindən irəli gəlmişdir. Lakin vergi sistemi inkişaf etdikcə onun inzibatçılığında funksional metodun tətbiqinə zərurətin olduğu özünü göstərməyə başlamışdır. XX əsrin ortalarında artıq məlum oldu ki, əvvəlki inzibatçılıq sistemi vergi qanunvericiliyinin səmərəli tətbiqinə mane olur, vergilərin və vergi ödəyicilərinin sürətlə artdığı bir şəraitdə vergi nəzarətinin mövcud mexanizmi korrupsiya halları ilə səmərəli mübarizənin aparılması üçün lazımi tələblərə cavab vermir. Bunlarla əlaqədar 1952-ci ildə Daxili Gəlirlər Xidmətində idarəetmə sisteminin funksional prinsip əsasında yenidən qurulması ilə bağlı islahatın aparılması üçün xüsusi qərar qəbul edildi.

ABŞ-ın vergi inzibatçılığında islahatların aparılması aşağıdakı tədbirlərin həyata keçirilməsini nəzərdə tuturdu:

*Hazırda Azərbaycan Respublikasının vergi sistemində vergi inzibatçılığı funksional prinsip əsasında təşkil olunmuşdur və inzibatçılığın bu modeli digər idarəetmə modelləri ilə müqayisədə öz üstünlüklərini göstərmişdir*

- **birincisi**, vergilərin düzgün hesablanması, tam və vaxtında ödənilməsi, vergi qanunvericiliyinə könüllü əməletmə səviyyəsinin yüksəldilməsi məqsədilə vergi ödəyicilərində yoxlamaların aparılması, vergi borclarının məcburi alınması və vergi ödəyicilərinə xidməti həyata keçirən ayrı-ayrı departamentlərə xüsusi səlahiyyətlərin verilməsi. Bu tədbirlər nəticəsində qeyd olunan struktur bölmələrin vəzifə funksiyalarının yerinə yetirilməsində məsuliyyəti artmış olur, bundan əlavə, vergi orqanının müxtəlif vergilərin bir yoxlama çərçivəsində yoxlamaq və bütün vergilər üzrə yaranmış ümumi borc məbləğini vergi ödəyicisindən məcburi qaydada almaq imkanları genişlənir;
- **ikincisi**, vergi orqanlarının müxtəlif vergi növləri üzrə yaradılmış struktur bölmələri birləşdiriləcək onların fəaliyyətində olan təkrarlanmaların aradan qaldırılması və vergi inzibatçılığının funksiyaları üzrə ixtisaslaşdırılmış bölmələrin yaradılması. Bunun nəticəsində inzibatçılıq xərclərinin azaldılmasına və vergi orqanı əməkdaşlarının işinin səmərəliliyinin artırılmasına nail olunmuşdur. Bu işdə müasir informasiya texnologiyalarının inzibatçılıqda tətbiq edilməsinin və vergi orqanlarında geniş informasiya bazasının yaradılmasının böyük rolu olmuşdur;
- **üçüncüsü**, vergi inzibatçılığında korrupsiya əməllərinə şərait yarada bilən halların aradan qaldırılması. Bütün vergi növləri üzrə ümumi funksiyaları həyata keçirən müxtəlif funksional bölmələrin yaradılması ilə vergi ödəyicilərinin daimi olaraq yalnız bir struktur bölmənin əməkdaşları ilə təmasda olması halları aradan qaldırılmışdır ki, bu da korrupsiya əməlləri üçün şəraitin yaranmasına imkan vermir. Bundan sonra vergi ödəyiciləri funksional bölmələrin hər biri ilə, misal üçün, hesabatlılıq məsələləri üzrə bəyannamələrin qəbulu və yoxlanılması bölməsinə, borclarla bağlı məsələlərdə vergi borclarının məcburi alınmasını həyata keçirən bölməyə müraciət etmək məcburiyyətində qalırlar. Bu zaman aidiyyəti departamentlərə tabe olan bütün bölmələrin əməkdaşları əlaqəli şəkildə fəaliyyət göstərməklə yanaşı, həm də bir-birinin fəaliyyətini yoxlamaq imkanında olurlar. Bunlarla yanaşı, vergi xidmətinin yerli strukturlarında yalnız yuxarı təşkilatın rəhbərliyinə hesabat verən daxili nəzarət bölmələrinin yaradılması da korrupsiya hallarının qarşısını alır.

Yuxarıda göstərilənlərlə yanaşı, bəzi mütəxəssislər vergi inzibatçılığının funksional prinsip üzrə təşkilinin çatışmayan cəhətlərini də vurğulayırlar. Onların fikrincə, inzibatçılığın təşkilinin bu forması tətbiq edilərkən vergi orqanlarının struktur bölmələrinin fəaliyyəti yalnız ayrı-ayrı funksiyalarla fraqmentləşdirilir ki, bu da ödəyicilərə göstərilən xidmətin keyfiyyətinin aşağı düşməsinə gətirib çıxara bilər. Lakin onu da qeyd etmək lazımdır ki, vergi inzibatçılığının hansı formasının üstünlüyü məsələsində idarəetmənin keyfiyyəti, səmərəliliyi, dövlətin və vergi ödəyicilərinin mənafelərinin balanslaşdırılması kimi amillər ön planda olmalıdır.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Qeyri-rezident fiziki şəxslərə ödənişlər

***Azərbaycan Respublikasında konsert proqramlarının təşkili ilə məşğul olan hüquqi şəxsin qeyri-rezident fiziki şəxslərə etdiyi ödənişlərdən hansı qaydada vergi tutulur?***

Vergi Məcəlləsinin (VM) 13.2.16.17-1-ci maddəsinə əsasən, mədəniyyət, incəsənət, teatr, kino, radio, televiziya, musiqi, rəssamlıq, idman, mühəndislik, memarlıq, arxitektura və elm sahələri üzrə Azərbaycan Respublikasındakı fəaliyyətlə bağlı edilən ödənişlər Azərbaycan mənbəyindən gəlir hesab edilir.

Qeyri-rezidentin bu Məcəllənin 13.2.16-cı maddəsi ilə Azərbaycan mənbəyindən əldə olunan gəliri kimi müəyyən edilən və qeyri-rezidentin Azərbaycan Respublikasının ərazisindəki daimi nümayəndəliyinə aid olmayan ümumi gəlirindən VM-in 125.1.5-ci maddəsi ilə müəyyən edilən ödənişlər üzrə ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

VM-in 169.1-ci maddəsinə əsasən, ƏDV məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezident Azərbaycan Respublikasının ərazisində VM-in 169.2-ci və ya 169.5-ci maddələrində adı çəkilən vergi agentinə xidmət göstərirsə və ya iş görürsə, bu fəslin məqsədləri üçün işlərin görülməsi və ya xidmətlərin göstərilməsi vergiyə cəlb olunur.

VM-in 169.2-ci, 169.3-cü və 169.4-cü maddələrinə əsasən, ƏDV məqsədləri üçün qeydiyyata alınan hər hansı şəxs bu maddənin məqsədləri üçün vergi agenti sayılır. Məcəllənin 169.1-ci maddəsi tətbiq edildikdə vergi agenti qeyri-rezidentə ödənməli olan məbləğə ƏDV hesablamalı və ödəməlidir. Verginin məbləği 173.1-ci maddənin müddəalarına uyğun olaraq vergi dərəcəsinin qeyri-rezidentə ödənməli olan məbləğə (ƏDV nəzərə alınmadan) tətbiq edilməsi yolu ilə müəyyənləşdirilir. Vergi agenti ƏDV məqsədləri üçün qeydiyyatdan keçmişdirsə, hesablanan vergi əməliyyatın aparıldığı ay üçün ƏDV-nin bəyannaməsi verilərkən ödənilir. Hesablanan verginin ödənilməsini təsdiq edən ödəmə sənədi bu Məcəllənin 175-ci maddəsinin müddəalarına uyğun olaraq vergi agentinə ƏDV-nin məbləğini əvəzləşdirmək hüququnu verən elektron vergi hesab-fakturasıdır.

Vergi agenti ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçməmişdirsə, o, hesablanan vergini bu maddəyə uyğun olaraq qeyri-rezidentə ödəmə verildikdən sonra 7 gün ərzində ödəməyə və növbəti ayın 20-dək müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş formada ƏDV bəyannaməsi verməyə borcludur. Bu Məcəlləyə uyğun olaraq vergi agentinin qeyri-rezidentə ödənilməli olan məbləğ ƏDV-nin hesablanması üzrə əməliyyatları vergi agentinin ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmasına görə müəyyənləşdirilən vergi tutulan əməliyyatlarına aid edilmir. Vergi agenti qeyri-rezidentə ödənilməli olan məbləğə ƏDV-ni hesablayaraq büdcəyə ödədikdə, ödəniş sənədlərində vergini qeyri-rezidentdə ödədiyi məbləğdən hesabladığı barədə müvafiq qeyd aparmalıdır (VM, maddə 169.5).

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz.

# Hər kəs qanunlara ciddi riayət etməlidir

AZ RBAYCAN KONST TUS YASININ 73>C MADD S N G R ,
QANUNLA M YY N ED LM VERG L R V BA QA D VL T D N L R N
TAM H CMD V VAXTINDA D M K H R K S N BORCUDUR

Azərbaycanda vergi yükü Avropa ölkələrinə nisbətən xeyli az, vergi dərəcələri aşağı olsa da vergidən yayınmağa cəhd edən və vergi borcuna etinasız münasibət göstərən vergi ödəyiciləri çoxdur. Vergi orqanlarının başlıca vəzifələrindən biri də vergi borcunun dövlət büdcəsinə qaytarılması üçün tədbir görməkdir. Bunun üçün əvvəlcə borclu vergi ödəyicisi ilə əlaqə yaradılır, vergi öhdəliklərinin yerinə yetirilməsi haqqında ona ətraflı məlumat verilir, qanunvericiliyin tələbləri izah olunur.




Vergilər Nazirliyində tətbiq edilən müasir informasiya texnologiyaları vergi ödəyicilərinin dərhal məlumatlandırılmasına kifayət qədər geniş imkanlar yaradır. Borclu vergi ödəyiciləri elektron bildirişlərlə yanaşı, SMS və səsli mesajlar vasitəsilə ətraflı məlumatlandırılır, borcların yaranma səbəbləri, ödənilmədiyi halda görüləcək tədbirlər barədə izahatlar verilir. Bu metod bir çox hallarda yaranmış vergi borclarının ilkin mərhələdə heç bir məcburi tədbir görülmədən ödənilməsi ilə nəticələnir.

*Hər kəs öz vətəndaşlıq öhdəliklərinə daha məsuliyyətlə yanaşmalı, cəza tədbirləri görülmədən Konstitusiya borclarını yerinə yetirməlidir*

Bəzi hallarda vergi borclarının könüllü ödənilməsi ilə bağlı həyata keçirilən tədbirlər lazımi nəticə vermir. Belə olan halda, inzibati tədbirlər həyata keçirilir və vergi ödəyicisinin bank hesablarına sərəncam qoyulur. Vergi Məcəlləsinə əsasən, vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarda vəsaiti olduqda, vergi orqanının sərəncamı bank və ya digər kredit təşkilatı tərəfindən həmin sərəncamın daxil olduğu gün icra edilir. Vergi ödəyicisinin hesablarında vəsait olmadıqda və ya müəyyən edilən həcmdə vəsaitin dondurulmasına kifayət etmədikdə, vergi orqanının sərəncamı bankda və ya digər kredit təşkilatında saxlanılır və vergi ödəyicisinin hesablarına vəsait daxil olduqca icra edilir. Bu tədbirlər də nəticə vermədikdə, vergi borclarının ödənilməsini təmin etmək üsulu kimi, borclu vergi ödəyicisinin əmlakı aşağıdakı ardıcıllıqla siyahıya alınır:

- ♦ nağd pul vəsaitləri;
- ♦ bilavasitə məhsulların (malların) istehsalında iştirak etməyən əmlak (qiymətli kağızlar, valyuta dəyərliləri, qeyri-istehsal binaları, minik avtonəqliyyatı, xidmət otaqlarının dizayn əşyaları və sair);
- ♦ hazır məhsullar (mallar), habelə istehsalda iştirak etməyən və (və ya) bilavasitə istehsalda iştirakı nəzərdə tutulmayan digər maddi qiymətlilər;
- ♦ istehsalda bilavasitə iştirakı nəzərdə tutulmuş xammal və materiallar, habelə dəzgahlar, avadanlıqlar, binalar, qurğular və digər əsas vəsaitlər;
- ♦ inventarizasiya aparılmaqla digər əmlak.

Vergi ödəyicisi vergi öhdəliyini yerinə yetirdikdə əmlakın siyahıya alınması haqqında qərar həmin andan öz qüvvəsini itirir. Vergi ödəyicisinin əmlakı siyahıya alındıqdan sonra 30 gün müddətində vergi öhdəliyi yerinə yetirilmədikdə, məhkəmənin qərarı əsasında vergi öhdəliyinin icrasının təmin olunması məqsədilə zəruri və kifayət olan həcmdə siyahıya alınmış əmlak ixtisaslaşdırılmış açıq hərracda satılır və dövlət büdcəsinə olan borc bu vəsait hesabına tam şəkildə ödənilir. Mövcud praktika göstərir ki, siyahıyaalınma tədbirləri görüldükdən sonra vergi ödəyicilərinin çoxu borclarını qısa müddətdə ödəyirlər.

Əslində isə buna ehtiyac olmamalıdır: hər kəs öz vətəndaşlıq öhdəliklərinə daha məsuliyyətlə yanaşmalı, cəza tədbirləri görülmədən Konstitusiya borclarını yerinə yetirməlidir.

**Rəşad SADIQOV**

# «Yaşıl kart»çıların regional iclası

«Yaşıl kart» - avtonəqliyyat vasitələri sahiblərinin məsuliyyət sığortası üzrə beynəlxalq sığorta sazişidir. Sazişə əsasən, nəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyəti üzrə sazişin üzvü olan istənilən ölkədə verilmiş sığorta şəhadətnaməsi digər üzv ölkələrin ərazisində qüvvədədir. «Yaşıl kart» sistemi 50-yə yaxın ölkədə, o cümlədən Rusiya, Türkiyə və İranda tətbiq edilir.

Oktyabrın 8-9-da Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda «Yaşıl kart» sisteminə üzv olan ölkələrin Cənub-Şərq Qrupunun 19-cu regional iclası keçirilib. Azərbaycanın İcbari Sığorta Bürosu (İSB) ilk dəfə olaraq iclasda qonaq qismində iştirak edib. Tədbirdə İSB-nin icraçı direktoru Elxan Quluyev Azərbaycanın «Yaşıl kart» sistemində iştirakı və avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığorta bazarındakı cari vəziyyətlə bağlı təqdimatla çıxış edib.

İSB-dən verilən məlumata görə, maliyyə tələblərini təmin etdikdən sonra, 2016-cı ildən Azərbaycan «Yaşıl kart» sisteminin Cənub-Şərq Qrupuna daxil olacaq (bu qrupa hazırda 12 ölkə: Albaniya, Bosniya və Hersoqovina, Bolqarıstan, Kipr, Makedoniya, Yunanıstan, İran, İsrail, Moldova, Rumıniya, Serbiya və Türkiyə daxildir).

Xatırladaq ki, «İcbari sığortalar haqqında» Qanuna əsasən, 2016-cı il yanvarın 1-dən etibarən Azərbaycanda «Yaşıl kart» sisteminin tətbiqi nəzərdə tutulur.

**FƏXRİYYƏ**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

### 2015-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA:

- AZƏRBAYCANDA **19,7 MİLYARD** MANATLIQ VƏ YA ƏVVƏLKİ İLİN MÜVAFİQ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ **2,1%** ÇOX SƏNAYE MƏHSULU İSTEHSAL EDİLİB.
- ÖLKƏNİN MƏDƏNÇIXARMA SEKTORUNDA MƏHSUL İSTEHSALI **1,4%**, ƏMTƏƏLİK QAZ HASİLATI İSƏ **4%** ARTIB.
- QİYMƏTLİ KAĞIZLAR BAZARINDA ƏMƏLİYYATLARIN HƏCMİ **9 MİLYARDA** ÇATIB.
- ƏHALİNİN NOMİNAL GƏLİRLƏRİ **5,8%** ARTARAQ **30,1 MİLYARD** MANATA ÇATIB. GƏLİRLƏRİN **75,6%-İ** İSTEHLAKA, **9,4%-İ** VERGİLƏRİN, SIĞORTA VƏ ÜZVLÜK HAQLARININ ÖDƏNİLMƏSİNƏ, **12,1%-İ** ƏMANƏTLƏRİN VƏ KAPİTALIN ARTIRILMASINA, **2,9%-İ** İSƏ KREDİTLƏR ÜZRƏ FAİZLƏRİN ÖDƏNİLMƏSİNƏ SƏRF EDİLİB.
- ÖLKƏNİN XARİCİ TİCARƏT ƏMƏLİYYATLARININ HƏCMİ **15,3 MİLYARD** DOLLARI ÖTÜB.

# Lisenziyaların çoxluğu sahibkarlığın inkişafına mane olur

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında sahibkarlığın inkişafına əngəl törədən amillərdən danışarkən lisenziyalaşdırma sahəsindəki mövcud vəziyyətin qeyri-qənaətbəxş olduğunu və bu sahədə islahatların aparılmasının vacibliyini diqqətə çatdırıb: «Bizdə lisenziyaların sayı həddindən artıq çoxdur. Mənə verilən məlumata görə, lisenziyaların sayı getdikcə artır. Əksinə, azalmalıdır, amma bizdə artır. Nəyə görə? Çünki müvafiq qurumlar çalışırlar ki, lisenziyaların sayını artırsınlar. Lisenziya da nədir? Pul mənbəyidir. Qanunsuz varlanma metodudur. Nəyə lazımdır bu? Buna da çox ciddi baxmaq lazımdır. Hökumət təklif versin ki, hansı lisenziyalar verilir: o, əsaslıdır, əsaslı deyil və lisenziyaların sayı kəskin şəkildə azaldılmalıdır».

«İqtisadi resursların öyrənilməsi» İctimai Birliyinin rəhbəri Ruslan Atakişiyevin sözlərinə görə, sahibkarlığın inkişafı üçün dövlət tərəfindən yaradılmış əlverişli şəraitə baxmayaraq, bir sıra hallarda sənədləşmə prosedurlarının mürəkkəb olması azad biznesə mane olur. Hazırda müxtəlif fəaliyyət sahələri üzrə icazə, ekspertiza təyinatı, xüsusi razılıq, təsdiqedici qeyd, texniki talon, texniki şərt, texniki baxış aktı, texniki pasport, sərəncam, şəhadətnamə, sertifikat, rəy, rəsmiləşdirilmə, razılaşdırılma, qeydiyyata alınma və digər növ sənədlər mövcuddur. Bu sənədlərin böyük əksəriyyəti birbaşa sahibkarlıq fəaliyyətini əhatə edir. Sahibkarlardan 90 növ fəaliyyət sahəsi üzrə lisenziya, 46 fəaliyyət üçün icazə, 27 fəaliyyət üçün xüsusi icazə, 39 fəaliyyət üçün şəhadətnamə, 19 fəaliyyət üçün rəy tələb olunur. Ümumiyyətlə, ayrı-ayrı sahibkarlıq fəaliyyəti ilə məşğul olan iş adamlarına tətbiq edilən icazə və lisenziyaların ümumi sayı 305-dir.

***Lisenziyalaşdırmada «bir pəncərə»...***

Avropa ölkələrinin əksəriyyətində sahibkarlıq fəaliyyəti üçün tələb olunan sənədlərin verilməsi prosedurları xeyli asandır. İş adamlarından vacib olmayan sənədlər tələb edilmir, onların fəaliyyətinə dair müvafiq sənəd əsasında razılıq verilir. Həmin ölkələrdə lisenziyalaşdırma əsas etibarilə sahibkarlar arasında rəqabətin stimullaşdırılmasına xidmət edir. Proses elektronlaşdırılıb və sahibkar üçün bürokratik əngəllərə rəvac verən prosedurlar yoxdur.

Ruslan Atakişiyev hesab edir ki, lisenziya tələb olunan fəaliyyət sahələrinin sayının azaldılmasına ehtiyac var. Hansısa fəaliyyət sahəsi üzrə lisenziyanın konkret ünvanlılığı da müəyyən edilməlidir. Məsələn, turizm fəaliyyəti üzrə 5-dən artıq lisenziya tələb olunur. Eləcə də spirtli içkilərin istehsalına, satışına, idxalına və ixracına görə ayrı-ayrılıqda 4 lisenziyanın alınması lazımdır. Nəqliyyat, səhiyyə, ticarət və istehsal sahələrində də bu tələblər mövcuddur. Ona görə də həmin fəaliyyət sahələri bir-birindən ciddi şəkildə fərqlənmədiyindən, onlar üzrə lisenziyaların birləşdirilməsi məqsədəuyğundur. Lisenziyaların sayının çox olması ilə bərabər, tələb edilən rüsumların məbləği də yüksəkdir. Təklif edilir ki, digər sahələrdə olduğu kimi, lisenziyalaşdırmada da «bir pəncərə» prinsipi tətbiq edilsin.

***Beynəlxalq Maliyyə Korporasiyası tövsiyə edir ki...***

Beynəlxalq maliyyə təşkilatları sahibkarlıq fəaliyyətinin və azad biznes mühitinin təkmilləşdirilməsi məqsədilə Azərbaycan hökumətinə tövsiyələrini təqdim edib. Beynəlxalq Valyuta Fondu və Beynəlxalq Maliyyə Korporasiyasının nümayəndələri özəl sektorda islahatların aparılmasına diqqət çəkərkən başlıca amil kimi lisenziya sahəsində əsaslı dəyişikliklərin edilməsinin vacibliyini vurğulayıblar. Onların mövqeyinə görə, bu sahədə mövcud problemlər daha çox kiçik və orta biznesə zərbə vurur. Lisenziyaların sayının və çəkilən xərclərin azaldılması özəl sektorda milyonlarla manat həcmində vəsaitə qənaət edilməsinə səbəb ola, ən əsası isə ölkədə biznes mühitinin yaxşılaşmasına müsbət təsir göstərə bilər. «Azərbaycanda biznes mühitinin təkmilləşdirilməsi» layihəsi üzrə Azərbaycan hökuməti ilə əməkdaşlıq edən Beynəlxalq Maliyyə Korporasiyası sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan inzibati prosedurların və müvafiq texniki-hüquqi məsələlərin həlində də dəstək göstərməyə hazır olduqlarını bildirib.

***«Elektron lisenziya» portalı yaradılacaq***

İqtisadiyyat və Sənaye Nazirliyindən verilən xəbərə görə, Prezident İlham Əliyevin bir müddət əvvəl imzaladığı «Dövlət xidmətlərinin göstərilməsində şəffaflığın artırılması, yaşayış yeri üzrə qeydiyyat və lisenziyalaşdırma prosedurlarının elektronlaşdırılması sahəsində bəzi tədbirlər haqqında» fərmanından irəli gələn məsələlərin həlli istiqamətində işlərə başlanılıb. Sənəddə ən mühüm maddələrdən biri sahibkarlıq sektorunda elektron xidmətlərin miqyasının genişləndirilməsi və sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan xüsusi razılıq (lisenziya), sertifikat, şəhadətnamə və digər sənədlərin elektronlaşdırılmasıdır. Bu məqsədlə İqtisadiyyat və Sənaye Nazirliyi ilə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi («ASAN Xidmət») ilin sonuna kimi «Elektron lisenziya» portalının yaradılmasını təmin etməyi planlaşdırır. Portal istifadəyə verildikdən sonra sahibkarlar qısa zamanda lazımi sənədləri əldə etmək imkanları qazanacaqlar. Portalın mühüm üstünlüklərindən biri tələb olunan sənədlərin alınmasına sərf edilən müddətin və xərclərin azalması olacaq.

***İdxal-ixrac sənədlərinin sayı 2-yə endiriləcək***

Hazırda Azərbaycanın beynəlxalq ticarət sisteminə inteqrasiyasının sürətləndirilməsi məqsədilə idxal-ixrac prosedurlarının təkmilləşdirilməsi başa çatmaqdadır. İdxal zamanı tələb olunan sənədlərin sayı 11-dən 2-yə endiriləcək və sahibkarlardan yalnız nəqliyyat sənədi və bəyannamə tələb olunacaq. İxrac fəaliyyəti ilə məşğul olan sahibkarlardan tələb edilən sənədlərin sayı da 8-dən 2-yə endiriləcək. Ümumilikdə isə tələb olunan sənədlərin sayı 19-dan 4-ə salınacaq. Bununla yanaşı, yaxın günlərdə ixracın lbir pəncərə» sistemi üzrə həyata keçirilməsinə başlanılacaq və daha asan ixrac qaydaları tətbiq ediləcək.

İqtisadiyyat və sənaye naziri Şahin Mustafayev bildirib ki, dövlət başçısının tapşırıqlarına uyğun olaraq, nazirlik tərəfindən verilən əlvan metal, tərkibində qiymətli metallar və daşlar olan sənaye və istehsalat tullantılarının tədarükü, emalı, satışı və əmtəə birjası fəaliyyətinə lisenziyaların xüsusi razılıq tələb edilən fəaliyyət növlərinin siyahısından çıxarılması barədə təkliflərin verilməsi qərara alınıb. Bununla yanaşı, lisenziya tələb olunan fəaliyyət növlərinin siyahısına yenidən baxılaraq, sayının azaldılması barədə ən qısa zamanda təkliflərin hazırlanması barədə qərar qəbul edilib. Yaxın vaxtlarda isə lisenziyalaşdırma sisteminin sadələşdirilməsi və təkmilləşdirilməsi məqsədilə mövcud sistemin optimallaşdırılması istiqamətində təkliflər hökumətə təqdim olunacaq. Sənəddə lisenziyaların sayının, tələb olunan sənədlərin, lisenziyanın qüvvədə olma müddətinin, dövlət rüsumunun məbləğinin azaldılması, lisenziyanın dayandırılması, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi və digər məsələlər nəzərə alınacaq.

**Elbrus CƏFƏRLİ**

# Fermerlər üçün yol-istirahət mərkəzi

**Azərbaycan Prezidenti İlham Əliyev ötən həftə Ucar rayonuna səfəri çərçivəsində «Fermer» yol-istirahət mərkəzi ilə də tanış olub. Regionlarda ilk dəfə yaradılan mərkəzin əsas fəaliyyəti kənd təsərrüfatı məhsullarının asan və rahat şəkildə pərakəndə və topdansatışını həyata keçirməkdir.**

Bakı-Gəncə magistral yolunun kənarında yerləşən və ümumi sahəsi 1200 kvadratmetr olan yarmarka tipli geniş satış mərkəzində Ucar və ətraf rayonlardan olan vətəndaşlara yetişdirdikləri məhsulları əlverişli şərtlərlə satmaq imkanları yaradılıb. Burada fermerlərin rahatlığı məqsədilə bütün zəruri infrastruktur yaradılıb, müasir tipli qonaq otaqları, yaşıllıq zonaları, süni göl və s. onların ixtiyarına verilib. Alqı-satqı edən, həmçinin xidmət sahəsində məşğul olan insanların rahatlığı və sağlamlığının qorunması məqsədilə digər zəruri tədbirlər görülüb, 24 saat fəaliyyət göstərən aptek və market istifadəyə verilib.

Kənd Təsərrüfatı Nazirliyinin (KTN) şöbə müdiri Firdovsi Fikrətzadənin sözlərinə görə, aqrar sahənin inkişafına dair dövlət proqramında əsas yer tutan məsələlərdən biri müasir bazar-market və biznes infrastrukturunun yaradılmasıdır. Bu mərkəzlər məhsul bolluğunun yaranmasına töhfə verməklə yanaşı, fermerlərin bir sıra problemlərini də aradan qaldıracaq. Artıq onların öz mallarını satmaq üçün paytaxt bazarlarına gəlməsinə ehtiyac qalmayacaq. «Fermer» yol-istirahət mərkəzi tipli satış yarmarkalarında 10-a yaxın rayonun istehsalçısı məhsul satmaq imkanı əldə edəcək. Nəticədə onlara qarşı yaradılan süni maneələr və bürokratik əngəllərin qarşısı alınacaq, gəlir əldə etmək imkanları artacaq. Digər tərəfdən, bu yeni layihələrin tətbiqi bölgələrdə yeni iş yerlərinin açılmasına, kənd camaatının məşğulluq səviyyəsinin yüksəldilməsinə təkan verəcək.

KTN rəsmisi hesab edir ki, ölkənin müxtəlif regionlarında da bu cür layihələrin tətbiqi nəzərdə tutulur və gələcəkdə bütün bölgələri əhatə edəcək. Hazırda ölkənin şimal regionunda «Fermer» yol-istirahət mərkəzlərinin yaradılması istiqamətində ilkin fəaliyyətlərə başlanılıb. Bununla yanaşı, bölgələrdə «yaşıl market» şəbəkəsi, «fermer mağazaları», həmçinin kənd təsərrüfatı məhsullarının satışında ixtisaslaşdırılmış topdansatış və logistik mərkəzlərin genişləndirilməsi də nəzərdə tutulub.

Yeni aqrar layihələrin yaradılması, ixtisaslaşmış satış mərkəzlərində nəzarət tədbirlərinin müasir üsullarla tənzimlənməsi inhisarçılığa təsir göstərəcək, vergidən yayınma hallarının qarşısının alınması istiqamətində mühüm rol oynayacaq.

**E.CƏFƏRLİ**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Avropa İnvestisiya Bankı Azərbaycanda kənd təsərrüfatı layihələrinə investisiya yatıracaq.

İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti tərəfindən sahibkarlıq subyektlərində aparılan bütün yoxlamalar dayandırılacaq.

Azərbaycanda «Vektor» pulköçürmə sistemi istifadəyə verilib.

2015-ci ilin sonuna qədər Azəri-Çıraq-Günəşli yatağı üzrə yeni hasilatın pay bölgüsü sazişi imzalanacaq.

Mərkəzi Bank gələn il banklarla kreditlərin faiz dərəcələrinin aşağı salınması istiqamətində işləri davam etdirəcək.

Nazirlər Kabinetinin qərarına əsasən, tikintisi başa çatmayan evlərə də ipoteka verilməsi mümkün ola bilər.

Növbəti üç ildə sənayenin inkişafına dövlət dəstəyi tədbirləri daha da gücləndiriləcək, yeni istehsal sahələrinin yaradılması üçün stimullaşdırıcı addımlar atılacaq.

# Sosial sığorta vergi deyil

Dövlət Sosial Müdafiə Fondu (DSMF) Qubada regional vətəndaş forumu keçirib. Qurumun mətbuat xidmətindən verilən məlumata görə, DSMF-nin şöbə müdiri Famil Qədimov qeyd edib ki, sosial sığorta iqtisadi mahiyyətinə görə vergi deyil, işçinin əməyinin dəyərinin bir hissəsidir və sosial risklərdən sığortalanma məqsədilə fondlaşdırılır: «Çünki əməyin dəyəri təkcə işçiyə əməkhaqqı kimi verilən məbləğlə deyil, işçi qüvvəsinin təkrar istehsalı üçün lazım olan bütün xərclərlə (o cümlədən xəstəlik, əlillik, qocalma, ailə başçısını itirmə hallarında təminatla) ölçülür. Buna görə də sosial sığorta haqları beynəlxalq təcrübədə, eləcə də ölkəmizdə əməkhaqqına üstəlik adlandırılır və əməkhaqqı ilə birlikdə məhsulun maya dəyərinə aid edilir. Burada ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının fərdi uçotu qurulmaqla, vətəndaşların pensiya hüquqları həmin uçotun məlumatları əsasında müəyyənləşdirilir. Təəssüf ki, bir sıra hallarda bəzi ekspertlər bunu vergi ilə qarışıq salır və sığorta-pensiya sistemi iştirakçılarında yanlış təsəvvür formalaşdırırlar».

Şöbə müdiri sosial sığorta haqlarının dərəcəsi barədə sualları cavablandıraraq diqqətə çatdırıb ki, ölkəmizin sığorta-pensiya sistemi vasitəsilə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına uyğun əməkhaqqı fondu, bundan formalaşan sosial sığorta haqları və həmin haqlara görə təyin olunan pensiyalar həlqəsi qurulmuşdur ki, bu şəraitdə sosial sığortaya cəlb olunan əməkhaqlarının artımı pensiya artımlarını da şərtləndirir: «Belə şəraitdə əməkhaqqına üstəlik kimi qəbul olunan sosial sığorta haqlarının azaldılması əməyin ümumi dəyərinin azaldılması anlamına gəlir, fərdi hesablarda toplanan vəsaitlərin də azalmasına səbəb olaraq gələcək pensiya təminatına mənfi təsir göstərir».

Qeyd edilib ki, MDB və Baltikyanı ölkələr içərisində sosial sığorta dərəcəsinin ümumi tarifinə görə Azərbaycan ən aşağı dərəcə tətbiq edən ölkədir. Son 20 ildə sosial sığorta dərəcələri Avstriyada 1,25%, Böyük Britaniyada 2%, Almaniyada 4,2%, İtaliyada 8,2%, Kanadada 4%, ABŞ-da 1,6%, Yaponiyada 1%, Rusiyada isə 8% qaldırılıb.

# Nağdsız əməliyyatlar üçün daha bir dəstək planı



*«MasterCard» beynəlxalq kart təşkilatı Azərbaycanda nağdsız dövriyyənin həcminin yüksəldilməsi və ödəniş kartları bazarının inkişaf etdirilməsi istiqamətində Mərkəzi Bankla birgə yeni layihələrə başlamağı planlaşdırır*

Mərkəzi Bankda keçirilən görüşdə təşkilatın Avropa ölkələri üzrə prezidenti Xavier Perez bildirib ki, nağdsız ödənişlərin inkişafına dəstək «MasterCard»ın bütün dünya ölkələri üzrə fəaliyyətinin mühüm prioritetlərindəndir və bu sahədə Azərbaycanla əməkdaşlığa böyük əhəmiyyət verilir. Onun sözlərinə görə, Azərbaycanda nağdsız ödənişlər bazarını genişləndirmək üçün münbit şərait, lazımi infrastruktur mövcuddur. Bununla yanaşı, ölkədə nağdsız əməliyyatlardan istifadə dinamikası hələ də yetərli səviyyədə deyil. Əsas səbəblərdən biri insanlarda ödəniş sistemləri ilə bağlı məlumatların az olmasıdır. Qeyd edilib ki, Azərbaycanda yaradılmış infrastruktur imkanlarından daha səmərəli və effektiv istifadə olunması, banklar tərəfindən elektron ödəniş xidmətlərinin inkişaf etdirilməsi və bu sahədə innovativ texnologiyaların tətbiqi vacibdir. Xüsusilə də bank və maliyyə təşkilatları plastik kartlardan istifadəni stimullaşdırmaq üçün ticarət məntəqələrində, turizm və xidmət sektorunda güzəştli kampaniyaların, həvəsləndirici oyunların keçirilməsini genişləndirməlidir.

Mərkəzi Bankın sədri Elman Rüstəmov «MasterCard»la əməkdaşlıq çərçivəsində ölkədə bir sıra əhəmiyyətli layihələrin uğurla həyata keçirildiyini, beynəlxalq tendensiyaların daim diqqət mərkəzində saxlanıldığını diqqətə çatdırıb. Kompleks tədbirləri özündə əks etdirən Dövlət Proqramı layihəsi beynəlxalq təcrübə əsasında hazırlanaraq hökumətə təqdim olunub. Layihə ölkəmizdə Milli Ödəniş Sisteminin effektiv və təhlükəsiz fəaliyyətinin təmin olunması, əhalinin, iqtisadi subyektlərin elektron ödəniş xidmətlərindən daha aktiv istifadəyə cəlb edilməsi, elektron bankçılığın inkişafı, innovativ ödəniş alətlərinin, o cümlədən elektron pulun istifadə imkanlarının və bank xidmətlərində müasir texnologiyalardan istifadənin genişləndirilməsi, habelə bank xidmətlərinin iqtisadi səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsi kimi strateji məsələləri özündə əks etdirir. Ölkədə innovativ ödəniş texnologiyalarının tətbiqinin və ödəniş xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi, ödəniş xidmətləri bazarında rəqabət mühitinin gücləndirilməsi və istifadəçilərin müdafiəsinin artırılması məqsədilə «Ödəniş xidmətləri haqqında» ayrıca bir qanun layihəsi hazırlanıb.

**ELBRUS**

# Hüquqi şəxsin ləğv olunması

## Ləğvetmə elanının 3 dəfə dərc olunması kreditorların hüquqlarının qorunmasına yönəlmiş bir addımdır

*Redaksiyamıza kommersiya hüquqi şəxsin ləğv olunması ilə bağlı müxtəlif xarakterli müraciətlər daxil olur. Həmin müraciətlərə əsasən deyə bilərik ki, bu sahədə sahibkarlara aydın olmayan bəzi məqamlar var. Bakı Vergilər Departamentinin Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsinin rəisi Samir Seyidəhmədli bu məqamlara aydınlıq gətirir.*

***Kommersiya hüquqi şəxsin ləğvolunma səbəbləri***

Azərbaycan Respublikasının Mülki və İnzibati Xətalar məcəllələrinə və «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanuna dəyişikliklərdə (2013-cü il 22 noyabr tarixli) beynəlxalq təcrübə öyənilməklə kommersiya hüquqi şəxslərin könüllü ləğv edilməsi prosedurlarının təkmilləşdirilməsi məqsədilə hazırlanmış təkliflər nəzərə alınmışdır.

Mövcud qanunvericiliyə əsasən, hüquqi şəxsin ləğvi onun mövcudluğuna və fəaliyyətinə hüquq və vəzifələri hüquq varisliyi qaydasında başqa şəxslərə keçmədən xitam verilməsi deməkdir. Mülki Məcəllənin 59-cu maddəsində hüquqi şəxslərin ləğv olunma əsasları konkret qeyd edilib. Hüquqi şəxsin təsisçilərinin və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə, o cümlədən hüquqi şəxsin mövcudluğu üçün nəzərdə tutulan müddətin başa çatması və ya yaradılması zamanı qarşıya qoyulan məqsədin əldə edilməsi ləğvetmə üçün əsasdır. Bundan əlavə, hüquqi şəxsin yaradılması zamanı yol verilmiş qanunvericilik pozuntuları ilə əlaqədar onun qeydiyyatının məhkəmə tərəfindən etibarsız sayılması, yaxud lazımi xüsusi icazə olmadan fəaliyyət və ya qanunla qadağan edilmiş fəaliyyət həyata keçirildikdə və bu Məcəllədə nəzərdə tutulan başqa hallarda məhkəmənin qərarı ilə ləğvetmə qərarı verilir.

Xüsusilə qeyd etmək lazımdır ki, hüquqi şəxsin yuxarıda qeyd olunan birinci əsasla ləğv edilməsi üçün onun cari fəaliyyətinə rəhbərlik edən icra orqanının hüquqi şəxsin bütün kreditorlarının tələblərini 12 ay ərzində qarşılamaq üçün ödəmə qabiliyyətinin olmasını təsdiq edən rəsmi bəyanatın qəbul edilməsi zəruridir. Digər iki halda isə hüquqi şəxs məcburi qaydada ləğv edilir və bununla bağlı tələbi məhkəməyə qanunla bu cür tələb irəli sürmək hüququ verilmiş dövlət orqanı irəli sürə bilər. Digər bir əsas isə hüquqi şəxsin müflis olması nəticəsində ləğv edilməsidir ki, bu zaman ləğv edilən hüquqi şəxsin əmlakının dəyəri kreditorların tələblərinin ödənilməsi üçün yetərli olmur.

***Ləğvetmə qərarı almış hüquqi şəxsin ilkin mərhələdə atacağı addımlar***

Hüquqi şəxsin ləğvi haqqında qərarla ləğvetmə komissiyası təyin edilir, Mülki Məcəlləyə uyğun olaraq, ləğvetmə qaydası və müddətləri müəyyənləşdirilir, ləğvetmə prosesi başlayır. Ləğvetmə komissiyasının təyin edildiyi andan hüquqi şəxsin işlərini idarə etmək səlahiyyətləri ona keçir. Ləğvetmə komissiyası borcların ödənilməsi və qalıq gəlirin saxlanıla bilməsi üçün hüquqi şəxsin əmlakını iqtisadi cəhətdən səmərəli, qiymət baxımından sərfəli və tez bir zamanda satılması, borcların ödənilməsindən sonra qalan əmlakın iştirakçılar arasında bölüşdürülməsi məqsədilə onun işini davam etdirir. Ləğvetmə komissiyası təyin olunduğu gündən sonra 10 gün müddətində hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə, yəni «Vergilər» qəzetində hüquqi şəxsin ləğv edilməsi və kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatı dərc etdirir. Ləğvetmə komissiyası təyin olunduğu gündən sonra 15 gün müddətində müvafiq ərizəyə ləğvetmə barədə qərarı, hüquqi şəxsin bütün kreditorlarının tələblərini 12 ay ərzində qarşılamaq üçün ödəmə qabiliyyətinin olmasını təsdiq edən rəsmi bəyanat, ilk məlumatın dərc olunmasını təsdiq edən sənədi və möhürü əlavə etməklə hüquqi şəxslərin dövlət qeydiyyatını həyata keçirən müvafiq icra hakimiyyəti orqanına təqdim etməlidir. Bundan başqa, ləğvetmə komissiyası kreditorları aşkar etmək və debitor borcunu almaq üçün tədbirlər görür, habelə ləğvetmə ilə bağlı mətbuatda elanın dərc olunduğu gün hüquqi şəxsin ləğvi haqqında bütün məlum kreditorlara bildiriş göndərir, dövlət büdcəsinə məcburi ödənişlər və büdcədənkənar dövlət fonduna məcburi dövlət sosial sığorta haqları üzrə borcların olub-olmamasını müəyyən etmək üçün müvafiq icra hakimiyyəti orqanına müraciət edir.

***İlk məlumatın dərc olunmasını təsdiq edən sənəd***

Hüquqi şəxsin ləğv edilməsi zamanı hüquqi şəxslərin dövlət qeydiyyatını həyata keçirən müvafiq icra hakimiyyəti orqanına təqdim olunan sənədlərdən biri də hüquqi şəxsin ləğv edilməsi və kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc olunmasını təsdiq edən sənəddir. Bu baxımdan, vergi ödəyiciləri müvafiq elanın dərc olunduğu «Vergilər» qəzetinin xüsusi buraxılışını idarədə əldə edib müvafiq ərizəyə əlavə edirlər. «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» və «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli fərmanında dəyişikliklər edilməsi haqqında» 27 dekabr 2013-cü il tarixli fərmanına əsasən, kommersiya hüquqi şəxsin ləğv edilməsi zamanı kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə onun ləğvi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc olunması ilə bağlı müraciətlərin elektron qaydada qəbulunu və dərc olunması faktını təsdiq edən sənədin verilməsi xidmətinin göstərilməsi Vergilər Nazirliyinə tapşırılmışdır. Həmin fərmana müvafiq olaraq, Vergilər Nazirliyi tərəfindən «Azərbaycan Respublikasında kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə kommersiya hüquqi şəxsin ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc olunması ilə bağlı müraciətlərin qəbulu və dərc olunma faktını təsdiq edən sənədin verilməsi» elektron xidməti üzrə inzibati reqlament təsdiq edilərək istifadəyə verilmişdir. Beləliklə, artıq vergi ödəyiciləri elan vermək üçün müraciəti «Vergilər» qəzetinin redaksiyasına getmədən də elektron qaydada edə bilərlər.

***Ləğvetmə ilə bağlı elanın mətbu nəşrdə üç dəfə dərc olunmasının səbəbi***

Bildiyiniz kimi, əvvəllər ləğvetmə ilə bağlı elan bir dəfə dərc olunurdu. Lakin Mülki Məcəlləyə edilmiş sonuncu dəyişikliyə əsasən, hüquqi şəxsin ləğv edilməsi və kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında məlumat hər dəfə 15-20 gün fasilə ilə daha iki dəfə eyni qaydada dərc etdirilməlidir. Burada məqsəd kreditorların hüquqlarının daha səmərəli qorunmasının təmin edilməsidir: bəzən kreditor bir dəfə dərc olunmuş elanı əldə etməyə bilər.

Məlumat üçün qeyd edək ki, bir çox inkişaf etmiş ölkələrin qanunvericiliyində də hüquqi şəxsin ləğv edilməsi zamanı məlumatlandırma bu qaydada həyata keçirilir. Bununla yanaşı, kreditorların hüquqlarının qorunması baxımından qanunvericilikdə hüquqi şəxslərin dövlət reyestrinə ləğvetmə prosesində olma barədə qeyd daxil edildikdən sonra hüquqi şəxs tərəfindən sənədlərin tərtibi zamanı üzərində «ləğv prosesindədir» yazılmış möhürdən istifadə olunması və bütün sənədlərdə onun adından sonra «ləğv prosesindədir» sözlərinin əlavə edilməsi öz əksini tapmışdır.

***Ləğvetmə müddəti ərzində vergi ödəyicisi ilə vergi orqanları arasında anlaşılmazlıqlar aradan qalxır***

Hüquqi şəxslərin ləğv edilməsi qaydası ilə bağlı Mülki Məcəlləyə edilmiş sonuncu dəyişikliyə qədər müəyyən anlaşılmazlıqlar var idi. Bunlar, adətən, hüquqi şəxsin ləğvetmə müddəti və mərhələləri, təqdim edilən sənədlər və onların məzmunu ilə bağlı olurdu. Lakin Məcəlləyə edilmiş sonuncu dəyişikliklərdən sonra bu anlaşılmazlıqlar aradan qalxıb və anlaşılmazlıq yaradan məsələlər aydın şəkildə tənzimlənib.

Qeyd olunmalıdır ki, hüquqi şəxslərin ləğv edilməsinə dair Mülki Məcəlləyə edilmiş yeni dəyişikliklərin tətbiqi ilə bağlı vergi ödəyicilərində yaranan suallar departament tərəfindən operativ qaydada cavablandırılır.

***Ləğvetmə elanlarının müddəti***

Qanunvericilikdə hüquqi şəxslərin ləğvi ilə bağlı dərc olunan elanların qüvvədə olma müddəti nəzərdə tutulmayıb. Çünki bu tip elanlar bəyanetmə xarakterli olduğundan, onların funksiyası kreditorlara, eləcə də digər maraqlı tərəflərə hüquqi şəxslərin ləğv edilməsinə dair məlumat çatdırmaqla, ləğvetmə ilə əlaqədar hansı ünvana və kimə, hansı qaydada müraciət etmələrini bildirməkdir.

**AYTƏN**

vergi cinayətləri

## Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Bəzi sahibkarlar vergidən yayınmaq üçün müxtəlif ərazi vergi orqanlarında ayrı-ayrı şəxslərin adlarına müəssisələr təsis edir, əldə olunan gəlirləri isə təkbaşına mənimsəyirlər. «Texmat Trading», «Life Group», «National Value», «AVN-S», «Kristal-VVS» adlı MMC-lər yaradan Emin Həsənov da belələrindəndir. O, yaxınlarının, qohum və dostlarının adlarına sənədləşdirdiyi müəssisələr vasitəsilə xeyli miqdarda vəsaiti mənimsəyib, vergiləri dövlət büdcəsindən yayındırıb.

Ancaq bir danılmaz həqiqət var ki, yalan, fırıldaq ayaq tutanda yeriyə, yeriyəndə isə uzağa gedə bilmir. Vergi orqanlarının həyata keçirdiyi vergi yoxlaması zamanı bu həqiqət bir daha təsdiqləndi - E.Həsənovun qanunsuz əməllərinin üstü açıldı. Məlum oldu ki, onun tabeliyindəki MMC-lərin fəaliyyəti bir-birindən fərqlənməyib, eyni ticarət və xidmət işlərini həyata keçirib. Vergilər də dövlət büdcəsindən eyni üsullarla yayındırılıb. Yoxlama nəticəsində həmin müəssisələrdə sadələşdirilmiş və əlavə dəyər vergisi üzrə cəmi 57.942,28 manat məbləğində verginin dövlət büdcəsindən yayındırıldığı aşkar olundu.

Qanunsuz hərəkətləri E.Həsənovu müttəhimlər kürsüsünə çıxardı. Hər bir müəssisənin vergidən yayınma faktı üzrə ayrı-ayrılıqda cinayət işləri açıldı. Sonradan Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən təqdim olunmuş materiallar əsasında həmin işlər bir icraatda birləşdirildi.

E.Həsənov CM-in 213.2.2-ci maddəsi ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edildi və barəsində həbs qətimkan tədbiri seçildi. Cinayət işlərinin istintaqı zamanı məlum oldu ki, o, direktoru olduğu müəssisələrin fəaliyyətinə dair vergi-mühasibat sənədlərini saxtalaşdıraraq vergi orqanına təqdim olunan bəyannamələrdə gəlir və xərcləri məqsədli şəkildə saxtalaşdırıb. Sadalanan qanunsuzluqlar nəticəsində Vergi Məcəlləsinin 16.1.1, 16.1.4, 16.1.6, 53,1, 72, 77.3, 78.1, 82.3, 83.4, 85.2, 103.1, 104, 105.1, 218, 220 və 221-ci maddələrinin tələblərinin pozulduğu müəyyən edildi.

İş üzrə təqsirləndirilən şəxs qismində dindirilmiş E.Həsənov CM-in bir neçə maddəsi ilə ona elan edilmiş ittihamda özünü tam təqsirli bilərək baş vermiş cinayətlərdə günahkar olduğunu təsdiqlədi.

Şahid qismində dindirilən şəxslərin ifadələri, alqı-satqı müqavilələri və bank köçürmələri, çeklər, mühasibat sənədləri, məhkəmə-mühasibat ekspertizasının rəyləri və digər maddi sübutlar əsasında onun törətdiyi cinayət əməlləri tam sübuta yetirildi. Nəticə isə acı oldu: Yasamal Rayon Məhkəməsinin hökmü ilə Emin Həsənov 4 il 6 ay müddətinə azadlıqdan məhrum edildi.

**ELBRUS**

## Davamlı inkişaf konsepsiyaları müzakirə olunub

**2015-ci ilin sentyabr ayında BMT-yə üzv olan 193 dövlət tərəfindən qəbul edilmiş «Dünyamızı dəyişək: 2030-cu ilə qədər davamlı inkişaf proqramı» yoxsulluğun aradan qaldırılması, rifah və əmin-amanlığın təmin olunması, habelə ətraf mühitin mühafizəsi kimi məsələləri əhatə edir.**

Oktyabrın 15-də Bakıda keçirilmiş 1-ci Azərbaycan Beynəlxalq Konfransı da bu proqramın müəyyənləşdirdiyi vəzifələrlə səsləşirdi. Dayanıqlı inkişaf və korporativ sosial məsuliyyət mövzusuna həsr olunmuş konfransda 300 nümayəndə iştirak edirdi. Onların arasında Azərbaycanda fəaliyyət göstərən «SOCAR», «Azercell», «Access Bank», «BP», «EY», «SAP», «TeliaSonera», «Təmiz Şəhər» və «XalqBank» kimi aparıcı şirkətlərin, həmçinin müxtəlif nazirlik və digər dövlət strukturlarının təmsilçiləri, eləcə də məsləhət şirkətləri, beynəlxalq təşkilatlar və xarici ekspertlər var idi.

Konfransın plenar iclasında davamlı inkişafın konsepsiyaları və qlobal təmayülləri müzakirə edildi, sessiyalar isə yaşıl iqtisadiyyat, dayanıqlı infrastruktur, ərzaq təhlükəsizliyi, daha yaxşı cəmiyyət naminə biznes, strategiya, layihələr və çağırışlar kimi mövzulara həsr olunmuşdu.

Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun direktoru Vilayət Vəliyev bildirdi ki, cəmiyyətdə davamlı inkişafa nail olmaq şirkətlərin qarşısına kompleks məsələlər qoyur və bunlar korporativ sosial məsuliyyət proqramının təbiqi çərçivəsində öz həllini tapır: «Biznesin sosial məsuliyyəti və ya korporativ sosial məsuliyyəti şirkətlər tərəfindən cəmiyyətin yaxşılaşdırılması və ətraf mühitin mühafizəsində iştirak etmək barədə könüllü qərarın qəbul edilməsi üzrə yeni konsepsiyadır. Azərbaycanda bir sıra şirkətlərin korporativ sosial məsuliyyət strategiyası var. Həmin strategiyalarda sosial-iqtisadi məsələlərin həlli, yerli icmalarda həyat keyfiyyətinin yaxşılaşdırılması, ictimai rifah, habelə ekoloji sabitliyin təmin edilməsi və ətraf mühitin qorunub saxlanması kimi məsələlər mühüm yer tutur». V.Vəliyevin sözlərinə görə, korporativ məsuliyyətin mərkəzində müəssisələr durduğu üçün vergilərə ciddi münasibət böyük əhəmiyyət daşıyır: «Vergilərə bağlı məsuliyyət həm müəssisələrin iqtisadi məsuliyyətliliyi təsnifatına, həm də qanunvericiliyə aiddir. Qanunvericilik vergilərin vaxtında və tam ödənilməsini tələb edir ki, bu da korporativ sosial məsuliyyətin ayrılmaz bir atributudur».

İqtisadi və Sosial İnkişaf Mərkəzinin İdarə Heyətinin sədri Vüqar Bayramov bildirdi ki, Azərbaycan dayanıqlı inkişaf və korporativ sosial məsuliyyətin formalaşması istiqamətində son illər ciddi addımlar atmaqdadır: «Bu gün korporativ sosial məsuliyyət dayanıqlı inkişaf aspektindən gündəmdədir. Bu həm də vergi mədəniyyətinin formalaşdırılması və vergi intizamının qorunmasını deməkdir. Çünki korporativ sosial məsuliyyət daşıyan şirkət vergilərin vaxtında ödənilməsinə və digər məcburi öhdəliklərin yerinə yetirilməsinə daha ciddi yanaşır». V.Bayramov onu da qeyd etdi ki, konfransın mövzusu vergi gəlirlərinin stabil, dayanıqlı şəkildə formalaşmasına xidmət edir: «Neftin qiymətinin aşağı düşməsi fonunda Azərbaycanda aparılan iqtisadi islahatlar dövlət büdcəsində qeyri-neft sektorunun payının artmasına gətirib çıxarır. Respublikamızda qeyri-neft sektoru və vergi daxilolmalarının büdcə gəlirlərindəki xüsusi çəkisi ildən-ilə artır və bu tendensiya 2016-cı ildə də davam edəcək. Dayanıqlı inkişaf və korporativ sosial məsuliyyət büdcənin diversifikasiyası, büdcə gəlirlərində vergi daxilolmalarının payının artması, ölkə iqtisadiyyatının daha dayanıqlı və stabil inkişafı üçün zəmin yaradır».

Konfransa həsr olunmuş sərginin stendlərində müxtəlif müəssisə və təşkilatların fəaliyyəti və davamlı inkişaf, habelə korporativ sosial məsuliyyət üzrə layihələr nümayiş etdirildi, həmçinin potensial investorlar və iştirakçılar üçün aktual layihələrin təqdimatı keçirildi.

**Fəxriyyə İKRAMQIZI**

# Vergi ödəyicilərinin doğma ocağı

***Burda hər kəs səhər tezdən iş başındadır: əməkdaşlar da, vergi ödəyiciləri də... Kimi növbəyə durmaq üçün nömrə götürür, kimi növbəsinin vaxtını gözləyir, kimi də müraciət etdiyi məsələnin həlli ilə məşğuldur... Kənardan baxanda nəzərə çarpan budur ki, xidmət mərkəzində müraciət edən vətəndaş da razıdır, ona xidmət göstərən də.***

Mirəli Qaşqay küçəsi 56 ünvanında yerləşən Vergilər Nazirliyinin Vergi Ödəyicilərinə Xidmət Mərkəzi vergi məsələləri ilə bağlı müraciət edən hər kəsə xidmət göstərir. Saat 9-dan 6-dək fasiləsiz işləyən mərkəz müasir avadanlıqlar və sürətli kommunikasiya sistemi ilə təchiz edilib. Burada vergilər barədə məlumat və izahatların alınması, fiziki şəxslərin qeydiyyatı və qeydiyyatdan çıxarılması, hüquqi və fiziki şəxslərin təsərrüfat subyektlərinin, NKA-ların qeydiyyatı və qeydiyyatdan çıxarılması, müxtəlif elektron xidmətlər, əmək müqavilələrinin elektron informasiya sisteminə daxil edilməsi və s. xidmətlər göstərilir. Mərkəzdə, həmçinin, ödəyicilərə vergilərə aid ərizə və hesabat formalarının, buklet və başqa nəşrlərin verilməsi də təmin edilir.

***Mərkəzə müraciət edənlərin sayı xeyli artıb***

Xidmət mərkəzinin rəisi Nicat Mehdiyevin sözlərinə görə, 9 ay ərzində buraya 26285 müraciət olunub, 24765 nəfər qəbul edilib. Göstərilmiş xidmətlərin sayı isə 37049 təşkil edib. Bu göstəriciləri ötən ilin müvafiq dövrü ilə müqayisə etdikdə: müraciət edənlərin 17, 3%, qəbul edilənlərin 20,3%, göstərilmiş xidmətlərin sayında isə 51,7% artım olub: «Göstərilən xidmətlər əsasən sadələşdirilmiş vergi bəyannaməsinin vergi orqanına onlayn təqdim edilməsi, elektron bəyannamənin qəbulu, ərizə, arayış və məktubların vergi orqanına onlayn göndərilməsi, kommersiya hüquqi şəxslərin onlayn qeydiyyatı, vergi ödəyicisinin təsərrüfat subyektinin onlayn qeydiyyatı xidmətləri üzrə olub».

Xidmət rəisi otağında quraşdırılmış nəzarət tablosu vasitəsilə əməkdaşların hansının məşğul, hansının boş, hansının gözləmədə olduğuna nəzarət edir. Tabloda göstərilən xidmətin adı və sərf edilən vaxt da qeyd olunur.

***İnsanlarla xoş münasibət əsas şərtlərdəndir***

Mərkəzin əməkdaşı Anar Hüseynov vergi ödəyiciləri ilə işləməyin çox maraqlı olduğunu deyir. Vətəndaşların göstərilən xidmətlərdən razı, yaxud narazı qalmasına gəlincə, məmnunluğun ölçülməsi məqsədilə burada hər gün qeydiyyat aparılır: «Vergi ödəyiciləri məmnunluğun qiymətləndirilməsi məqsədilə masanın üstündəki bu elektron qurğu vasitəsilə səs verirlər və səsvermənin gündəlik hesabatı çıxarılır. Sevindirici haldır ki, «çox razı» variantı böyük üstünlük təşkil edir və təbii ki, bu, bizi daha da ruhlandırır».

Daha bir əməkdaş - Xalid Vəliyev vergi ödəyiciləri ilə işləməyin çətin olmadığını, lakin bu işin təmkin tələb etdiyini vurğulayır: «İnsanlara xidmət göstərərkən özünü onun yerinə qoymağa çalışmalısan. Ödəyicilər müəyyən səbəblərdən əsəbiləşsə də ona diqqətlə yanaşmaq lazımdır. Çalışırıq ki, vergi ödəyicisi bizdən razılıqla ayrılsın».

Dövlət vergi müfəttişi Xətai İsmayılzadə deyir ki, xidmət mərkəzlərində bir sıra normalara ciddi əməl olunmalıdır: «Burada səbrlilik, operativlik, insan təbiətini başa düşmək tələb olunur. Vergi ödəyiciləri ilə hansısa narazılıqların olub-olmamasına gəlincə, iş şəraitində belə hallarla rastlaşmaq mümkündür. Gördüyünüz kimi, burada növbə sistemi var və bu zaman insanlar müəyyən gərginlik keçirə bilərlər. Amma çalışırıq ki, vergi ödəyicilərinin narazılığının qarşısını almaq üçün onlarla yaxşı münasibət quraq. Kobud münasibətə kobudluqla cavab verməmək olmaz».

***Vergi ödəyiciləri xidmətdən məmnundurlar***

Göstərilən xidmətlərin vergi ödəyicilərini qane edib-etməməsini araşdırmaq məqsədilə onlarla da söhbət etdik.

<u>*Reyhan Həsrətova:*</u> «Sadələşmiş vergi bəyannaməsini təqdim etmək üçün müraciət etmişdim. Göstərilən xidmətdən çox razıyam. Sevinirəm ki, vergi ödəyicilərinə belə keyfiyyətli və operativ xidmət göstərilən bir mərkəz var».

<u>*Etibar Hacıyev:*</u> «Elektron xidmətlərlə bağlı müraciət etmişdim. Xidmət mərkəzində yaradılan şəraitdən, mənə göstərilən xidmətdən razı qaldım. Çox vaxt sərf etmədən öz işini yekunlaşdırmaq, əlbəttə ki, məmnunluq yaradır. Ümumiyyətlə, Vergilər Nazirliyinin ödəyicilərlə qurduğu əlaqələri yüksək qiymətləndirirəm. Bu cür qurumlar, həmçinin nazirliyin «195» Çağrı Mərkəzi tərəfindən göstərilən xidmətlər yüksək səviyyədədir. Zənglərə, müraciətlərə nəzakətlə cavab verilir, dolğun məlumat alırıq».

<u>*Arifə Naibova:*</u> «Elektron bəyannamənin qəbulu dərhal həyata keçirildi. Vergi əməkdaşlarının ödəyicilərlə rəftarı təqdirəlayiqdir. Yeri gəlmişkən, bir təklif irəli sürmək istərdim: yaxşı olardı ki, vergilərin ödənilməsi üçün bu mərkəzlərdə bank xidməti də göstərilsin».

<u>*Qalib Səmədov:*</u> «Vergi ödəyicisinin eyniləşdirmə nömrəsini (VÖEN) ləğv etmək üçün buraya müraciət etmişdim. Heç bir problemsiz istəyimə nail oldum. Xidmətin operativ və nəzakətlə göstərilməsini vergi ödəyicilərinə verilən dəyər kimi qiymətləndirirəm. Müraciətim cəmi 10 dəqiqəyə həll olundu».

***Xidmət mərkəzində bir sıra yeniliklər gözlənilir***

Nicat Mehdiyevin sözlərinə görə, gələcəkdə xidmət mərkəzlərində ödəniş terminallarının quraşdırılması nəzərdə tutulur. Bununla bağlı müəyyən danışıqlar aparılır: «Hazırda isə vergi ödəyiciləri hesabatlarını xidmət mərkəzlərində təqdim edə bilir, burada göstərdikləri vergiləri isə banklar vasitəsilə ödəyirlər». Daha bir yenilik isə «onlayn növbə» xidmətinin istifadəyə verilməsi olacaq. Artıq bu xidmətin layihəsi hazırlanıb və aidiyyəti şirkətlərlə danışıqlar aparılır: «Nazirliyin www.taxes.gov.az internet səhifəsində gələcəkdə «onlayn növbə» xidməti yer alacaq. Vergi ödəyiciləri mərkəzə gəlməzdən əvvəl onlayn növbəyə dura biləcəklər. Burada isə onlara verilən müvafiq kodu terminala daxil etməklə müraciət etdikləri xidmətlə bağlı təmsilçinin masasına yaxınlaşacaqlar».

Öyrəndik ki, hazır sənədlərin, arayışların internet vasitəsilə yoxlanılması üzrə rində də iş aparılır. Vergi ödəyiciləri internet vasitəsilə müraciətlərinin nömrəsini, adını, soyadını və ata adını daxil etməklə öz sənədlərinin xidmət mərkəzində olub-olmaması barədə məlumat əldə edə biləcəklər.

**AYTƏN**









beynəlxalq panoram

# Rusiyada vergi siyasətinin əsas istiqamətləri təsdiq edilib

Maliyyə Nazirliyindən verilən məlumata görə, 2016-2018-ci illər üçün vergi siyasətinin əsas istiqamətlərini müəyyən edən sənəd vergi yükünün artımına moratorium qoyur. Nazirliyin fikrincə, Rusiyanın vergi sistemi kifayət qədər inkişaf edib və ortamüddətli perspektivdə (3-5 il) yenidən baxılmasına ehtiyac yoxdur. Buna görə də biznesə vergi yükünün artımını nəzərdə tutan qanun layihələri Dövlət Duması tərəfindən müzakirəyə qəbul edilməyəcək və digər qanunverici subyektlərdən daxil olduğu halda, dəstəklənməyəcək.

2018-ci ilə qədər büdcədənkənar fondlara sığorta ödəmələrinin dərəcələri də artmayacaq. Hökumət fəaliyyətində əsas səyləri vergi ödəmələrindən yayınmanın qarşısının alınmasına və intizamlı vergi ödəyiciləri üçün daha üstün şərtlərin yaradılmasına yönəldəcək.

Yaxın 3 ildə vergi siyasətinin başlıca istiqamətlərindən biri kiçik biznesdə çalışan sahibkarlar üçün vergi hesabatlarına tələblərin sadələşdirilməsidir. Bu, məsələn, dayələr, repetitorlar və ya taksi sürücülərinə aiddir. Hazırda fərdi əməklə məşğul olan şəxslər iri sahibkarlıqla məşğul olanlarla eyni şərtlər əsasında hesabat verirlər. Bundan sonra isə onların patent alması kifayət edəcək və bəyannamə doldurmağa gərək qalmayacaq.

Xidmət sahəsində çalışan fərdi sahibkarlar üçün də patent sisteminə keçid nəzərdə tutulur. Belə sahələrə ayaqqabı təmiri, bərbər, atelye xidmətləri və emalatxanalar aiddir. Patent alan sahibkarlara ƏDV üzrə iki illik vergi tətilləri verilə bilər. İndiyə qədər bu cür güzəştləri yalnız elmi, istehsal və ya sosial sferada işləyən sahibkarlar ala bilərdilər.

Maliyyə Nazirliyindən o da bildirilib ki, öz işini leqallaşdırmayan, patent almayan və ya fərdi sahibkar kimi qeydiyyatdan keçməyən şəxsləri cərimələr gözləyir. Düzdür, cərimələrin məbləği hələlik patentin dəyərindən aşağıdır. Məsələn, taksi sürücüsü üçün patentin orta qiyməti illik 11 min, cərimənin maksimal məbləği isə cəmi 2 min rubldur.



Sənədin bir mühüm istiqaməti də fiziki şəxslərin gəlirlərinə vergilərlə bağlıdır. Yaxın 3 ildə dövlət qulluqçuları, hakimlər və hərbçilər işdən çıxdıqları zaman bu vergidən azad ediləcək. Müəssisələr də vergi güzəştləri ala biləcəklər. Məsələn, Rusiya regionlarında istehsalı inkişaf etdirən və investisiyalar cəlb edən təşkilatlar üçün mənfəət vergisinin dərəcəsi iki dəfə azaldılacaq (10%-ə qədər). Bütün yeniliklər Vergi Məcəlləsinə hazırlanan dəyişikliklərdə nəzərə alınacaq.

## Xəbər lenti

**Estoniya**nın Vergi və Gömrük Departamenti (MTA) rəqəmsal xidmətlər göstərən UBER şirkəti ilə əməkdaşlığa başlayıb. MTA-nın baş direktoru Marek Helm bildirib ki, iqtisadiyyatın müxtəlif sektorlarında tamamilə yeni biznes modelləri meydana gəlib və hökumət yeni çağırışlara cavab verməlidir. Onun sözlərinə görə, sadə və şəffaf vergi sistemi bütün müəssisələrin qanuna əməl etməsinə şərait yaradacaq.

**İspaniya** Nazirlər Kabineti şəxsi yaşayış evlərinin ərazisində yerləşən panellər vasitəsilə əldə edilən günəş enerjisindən özəl istifadə üçün vergi tətbiq olunması barədə kralın sərəncamını təsdiq edib. Bu vergi gücü 10 KVt-dən artıq günəş enerjisi sistemlərinə aiddir. İspan adalarında yerləşən günəş elektrik stansiyaları isə vergidən azad olunacaq.

**İsveçrə** Federal Şurası Beliz və Qrenada adaları ilə vergilərlə bağlı informasiyaların mübadiləsi barədə razılaşmanın qüvvəyə minməsi barədə qanun qəbul edib.

**Latviya**da 2017-ci ildən mikromüəssisələr üçün vergi rejimi ləğv edilərək yeni vergi tənzimləməsi tətbiq oluna bilər. Maliyyə Nazirliyindən bildirilib ki, yeni tənzimləmə kiçik müəssisələri və biznesə təzə başlayan iş adamlarını əhatə edəcək.

**Yunanıstan** maliyyə nazirinin müavini Trifon Aleksiadis bildirib ki, hökumət əmlak vergisini xaricdəki əmlakı da əhatə edən vahid ENFIA vergisi ilə əvəzləyəcək. Qeyd edək ki, əmlak vergisi rejiminin islahatı Yunanıstanın iqtisadi qurtuluşu üçün borc sazişinin şərtlərindən biridir.

**Türkiyə** və **Sinqapur** arasında azad ticarət razılaşmasına (TRSFTA) dair danışıqlar uğurla başa çatıb. TRSFTA geniş əhatəli ticarət sazişidir. Buraya mal və xidmətlərin alış-verişi, investisiya qoyuluşları, dövlət alqı-satqı əməliyyatları, intellektual əmlak hüququ, elektron kommersiya, eləcə də biznes aparmağın rəqabətliliyi və şəffaflığı ilə bağlı məsələlər daxildir.

**Böyük Britaniya**da tütün məhsullarına vergilərin kəskin şəkildə artırılması, hökumətin mövqeyinə görə, ikiqat fayda gətirəcək: həm əhalinin sağlamlığına xidmət edəcək, həm də dövlət büdcəsinə əlavə gəlirlər cəlb edəcək. Hökuməti təmsil edən qrup tərəfindən parlamentə siqaret və tütün məhsullarının satışına tətbiq olunan vergini iki dəfədən çox artırmaq təklif olunub.

*Xarici ölkələrin təcrübəsi*

# İspaniya Krallığının vergi sistemi: *fiziki şəxslərin gəlir vergisi*



İspaniyada rezident fiziki şəxslər dünya üzrə, qeyri-rezident fiziki şəxslər isə yalnız yerli mənbədən əldə etdikləri gəlirlərdən gəlir vergisi ödəyirlər. Ortaqlıqlar müəssisə hesab olunur və ümumi mənfəət vergisi qaydalarına əsasən vergiyə cəlb olunur. Ailədən ərlə arvadın gəlirləri həm ayrıca, həm də birgə vergiyə cəlb oluna bilər. Əgər ər-arvad ayrıca vergi bəyannaməsi təqdim edirlərsə, hər birinin gəlirləri və çıxılma icazəsi verilən xərcləri ayrıca nəzərə alınır.

***Rezidentlik***

Əgər fiziki şəxs istənilən təqvim ili ərzində 183 gündən artıq İspaniyada qalmışdırsa və fiziki şəxsin həyati maraqlarının mərkəzi, iqtisadi maraqları, sahibkarlıq və ya peşə fəaliyyəti İspaniyadadırsa, bu şəxslər İspaniyanın rezidenti hesab olunurlar. Ər-arvaddan birinin həyat yoldaşının və ya 18 yaşadək uşağının daimi yaşayış evi İspaniyadadırsa, rezident hesab olunur.

Ölkəyə daimi yaşamaq məqsədilə köçmüş fiziki şəxslər rezidentlərə tətbiq edilən gəlir vergisi və ya qeyri-rezidentlərin gəlir vergisi qanunvericiliyinə əsasən vergiyə cəlb olunmaq üsulunu seçə bilərlər. Bundan əlavə, öz daimi yaşayış yerlərini «vergi cənnətləri» hesab olunan ölkələrə dəyişən İspaniya vətəndaşları emiqrasiya ili və ondan sonrakı 4 il ərzində dünya üzrə əldə etdikləri gəlirlərdən ölkə qanunvericiliyinə əsasən vergiyə cəlb olunurlar.

***Vergiyə cəlb olunan gəlirlər***

İspaniyada mənbəyi və mənşəyi etibarilə gəlirlər 6 qrupa bölünür:

- muzdlu işdən gəlir;
- sahibkarlıq gəlirləri;
- daşınan əmlakdan gəlir;
- daşınmaz əmlakdan gəlir;
- kapital gəlirləri;
- şərti gəlirlər.

Ümumi qaydaya uyğun olaraq gəlir - əldə edildiyi vaxtdan vergiyə cəlb olunur. Bir sıra xüsusi hallar istisna olmaqla, gəlirin bölünməsinə yol verilmir.

***Vergidən azad olunan gəlir:***

- məbləği 1.500 avrodan az olan dividendlər;
- bir sıra kapital gəlirləri;
- qanunvericilikdə və ya məhkəmə tərəfindən müəyyən edilmiş, həmçinin sığorta müqaviləsində göstərilmiş maksimum məbləğə qədər fiziki və mənəvi xəsarətlərə görə ödənilmiş təzminatlar;
- qanunla müəyyən edilmiş məbləğlər daxilində istirahət günü əməyə cəlb edilmə və ya əmək müqaviləsinə xitam verilməsi ilə bağlı ödənilmiş icbari ödəmələr;
- ağır əlilliyi olan vergi ödəyicilərinə sosial sığorta sistemi üzrə ödənilən pensiya məbləği;
- məhkəmə tərəfindən müəyyən olunmuş azyaşlıların inkişafına dəstək ödənişləri;
- xüsusi növ mükafat və lotereyaların dəyəri.

Xarici ölkədə görülmüş işdən əldə edilən gəlir İspaniyadakı gəlir vergisinə oxşar olması nəzərə alınmaqla, 60.100 avro həddində gəlir vergisindən azaddır.

***Dərəcələr***

Vergi ödəyicisinin ümumi vergi tutulan gəlirləri aşağıdakı proqressiv dərəcələrlə vergiyə cəlb olunur (2012-2014-cü vergi illərinə, eyni zamanda, vergi əlavəsi də tətbiq edilir):

**Əsas dərəcə**

| Vergi tutulan gəlir (ABŞ dolları ilə) | Aşağı məbləğdən vergi (ABŞ dolları) | Artıq məbləğdən dərəcə (%) |
|---|---|---|
| 23.000-ə qədər | 0 | 24 |
| 23.000-42.900 | 5525 | 28 |
| 42.900-69.430 | 11094 | 37 |
| 69.430-156.000 | 20906 | 43 |
| 156.000-227.500 | 58132 | 44 |
| 227.500-dən artıq | 89592 | 45 |

**Vergi əlavəsi**

| Vergi tutulan gəlir (ABŞ dolları ilə) | 2012-2014-cü illər üzrə vergi əlavəsi | |
|---|---|---|
| | *Aşağı məbləğdən vergi (ABŞ dolları)* | *Artıq məbləğdən dərəcə (%)* |
| 23.000-ə qədər | 0 | 0,75 |
| 23.000-42.900 | 173 | 2 |
| 42.900-69.430 | 570 | 3 |
| 69.430-156.000 | 1366 | 4 |
| 156.000-227.500 | 4829 | 5 |
| 227.500-390.000 | 8404 | 6 |
| 390.000-dən artıq | 18154 | 7 |

2012-2014-cü vergi illəri üzrə əmanət gəlirləri aşağıdakı dərəcələrlə gəlir vergisinə cəlb olunub: vergiyə cəlb olunan məbləğ 7.800 avroya qədər olduqda 21%, 7.800-31.200 avro olduqda 25%, 31.200 avrodan artıq olduqda isə 27%.

**İspaniyada gəlir vergisi və ümumi vergi daxilolmaları (mlrd.ABŞ dolları ilə)**




*İcmalı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord




**Yuxarıdan aşağı:** 1.Amerikada məskunlaşmış qriflər sinfinə aid quş; 2.Teatr və kino sahəsində böyük uğurlar qazanmış, Azərbaycanın xalq artisti adına layiq görülmüş mərhum aktrisanın adı; 3.Şpatelə oxşar trafaret çap maşınlarında element; 4.Rusiya Federasiyasının Altay Respublikası ərazisində ən hündür dağ silsiləsi; 5.Əhəng əsaslı təbii üzlük daşı; 6.«Hobbit və ya oraya və geriyə» povestinin, «Üzüklərin hökmdarı» trilogiyasının və «Silmarillion» romanının müəllifi kimi məşhurlaşmış ingilis yazıçısı, linqvisti və filoloqunun soyadı; 9.Məqsəd, arzu, ümid, dilək; 13.Azərbaycanda, İran və Türkiyənin bir sıra bölgələrində uzunsov böyük xovlu xalçalara verilən ad; 15.Qarışıq, müxtəliflik; 16.Şumer və akkad mifologiyasında Babil panteonunun, Mesopotamiyanın ali tanrısı; 17.Polimer istehsalında istifadə olunun kimyəvi maddə; 18.Çində ənənəvi zərb musiqi aləti; 20.Abşeron rayonunda qəsəbə; 21.Rusiya Federasiyasının Murmansk vilayətində çay. Həmçinin, yundan toxunulmuş qadın üst geyimi. **Soldan sağa:** 1.Simli musiqi aləti; 5.Şahidlərin iştirakı ilə yoxlama nəticəsində müəyyən edilən bir faktı təsdiq edən sənəd, protokol; 7.Kabardin-Balkar Respublikasında şəhər; 8.Əmək qabiliyyətini itirmiş şəxs; 10.Rusiyada şəhər; 11.İran İslam Respublikasının birinci dini lideri və qurucusu; 12.Azərbaycanın milli hərbi rəqsi; 14.«Təxribat» filminin qəhrəmanı Zaur obrazını canlandıran aktyorun adı; 19.Gədəbəy rayonunda kənd; 21.Hindistanda və Şərqin bəzi ölkələrində ata-baba peşələri və hüquqi vəziyyətləri cəhətindən bir-biri ilə bağlı olan qapalı ictimai qrup, təbəqə; 22.Qasıq yırtıqlığı xəstəliyi; 23.Bir şeyə köçürülməli olan şəkil və ya yazı nümunəsi kəsilmiş nazik lövhə; 24.Respublikamızda çay; 25.Kimyəvi element (metal).



*Azərbaycanın milli hərbi rəqsi*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Şakira; 2.Riqsdaq; 3.Fales; 4.Axarsu; 5.Busta; 6.Şambor (qalası); 9.Anar; 13.Alna; 15.Baydaun; 16.Aypara; 17.Anetol; 18.Doktor; 20.Sibir; 21.Bonus. **Soldan sağa:** 1.Şərifzadə *(Abbas Mirzə)*; 5.Beş; 7.Keqelban; 8.Asim; 10.Rodos; 11.Sentavo; 12.Oqtay; 14.Truba; 19.Yesenin *(Sergey)*; 21.Boyto *(Arriqo)*; 22.ABBA; 23.Standart; 24.ADR; 25.Palisandr.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

idman

# Velosipedçimiz «Rio-2016»ya növbəti lisenziya xalları qazanıb

Azərbaycanın şose velosipedi üzrə qadınlardan ibarət yığma komandasının üzvü Yelena Pavluxina Fransada keçirilən birgünlük «Chrono des Nations» veloyürüşündə uğurla çıxış edib.

«Rio-2016» Yay Olimpiya Oyunlarına lisenziya xalları verən və fərdi ötüşmə sistemi üzrə keçirilən yarışda iştirakçılar 21 km məsafə qət ediblər. Velosipedçimiz bu məsafəni 29 dəqiqə 31 saniyəyə qət edərək, yekunda 5-ci yeri tutub və bununla da Rio-2016-ya 30 lisenziya xalı əldə edib. Hazırda Y.Pavluxinanın aktivində ümumilikdə 53 reytinq xalı var.




# Bir qızıl və qızıla bərabər bir gümüş medal

Qətərin paytaxtı Dohada keçirilən boks üzrə dünya çempionatı başa çatıb. Millimizin üzvü Elvin Məmişzadə 52 kq çəkidə həlledici qarşılaşmada güclü kubalı boksçu Yosbani Veitia ilə gərgin keçən döyüşdə böyük üstünlüklə qalib gəlib. İdmançımızın şərəfinə Azərbaycanın dövlət himni səsləndirilib, bayrağımız ucaldılıb.



Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan çempionatda mübarizə aparan digər boksçumuz dünya və Avropa çempionu Albert Səlimov (60 kq) isə çempionatın gümüş medalına sahib olub. Finalda Kubanın digər təmsilçisi, dünya çempionu Lazaro Alvares ilə qüvvəsini sınayan boksçumuz birinci raundda açıq-aydın üstün olmasına baxmayaraq, ikinci raundda zədələndiyi üçün hakimlər ona döyüşü davam etdirməyə icazə verməyiblər. Bununla da A.Səlimov dünya çempionatını gümüş medalla başa vurub.

Beləliklə, boks üzrə Azərbaycan yığması dünya çempionatından Vətənə 1 qızıl, 1 gümüş və iki bürünc medalla qayıdıb.

# «Qitələrarası Kubok» beynəlxalq turniri

Rusiya Federasiyasının Dağıstan Respublikasının Xasavyurt şəhərində keçirilən sərbəst güləş üzrə sayca yeddinci «Qitələrarası Kubok» beynəlxalq turniri başa çatıb. Yarışlarda iştirak edən yığma komandamızın üzvləri 1 gümüş və 2 bürünc medala sahib olublar.

Məşqçi David Kurtsiyanın rəhbərliyi altında Xasavyurtda mübarizə aparan güləşçilərimizdən Roman Bəkirov (97 kq) finaladək inamla irəliləyib. İlk görüşdə Rusiyadan Tamerlan Rasuevi, ardınca Məhəmmədrəsul Qazıməhəmmədovu, yarımfinalda ABŞ təmsilçisi Dastin Kilqoru tam üstünlüklə məğlub edən güləşçimiz finalda rusiyalı Axmed Batayevə uduzaraq gümüş medalla kifayətlənməli olub.

Turnirdə 97 kiloqram çəki dərəcəsində mübarizə aparan digər təmsilçimiz Aslanbek Alborov isə ilk görüşdə ABŞ-dan olan Vinn Mixalak, ardınca Qazaxıstan təmsilçisi Mamed İbrahimov, rusiyalı Zaynula Kurbanov üzərində qələbələr qazanıb. Ancaq yarımfinalda Rusiyanın digər təmsilçisi Axmed Batayevə uduzan güləşçimiz bürünc medal uğrunda görüşə çıxıb. Yerli idmançı Azret Şoqenovu üstələyən Aslanbek Alborov turnirin bürünc medalına sahib olub. Güləşçimiz Hacımurad Məhəmmədsəidov (86 kq) ilk görüşdə qazaxıstanlı Nurali Baymuratovu tam üstünlüklə məğlub etsə də, növbəti görüşdə Rusiya təmsilçisi Zəlimxan Minkailova uduzub. Rəqibin finala yüksəlməsi güləşçimizə təsəlliverici görüşlərə qatılmaq imkanı verib. Qazaxıstanlı Kanat Berdıev və Azamat Dauletbekovu üstələyən güləşçimiz bürünc medal uğrunda görüşdə Polşa təmsilçisi Sebastian Jezirjanskini də məğlub edərək turniri üçüncü pillədə başa vurub.

Görüşlərin idarə olunmasında ölkəmizi beynəlxalq dərəcəli hakim Kamran Əliyev təmsil edib.

«Bavariya» klubunun və Polşa yığmasının hücumçusu Robert Levandovskinin adı «Ginnes» rekordlar kitabına daxil ediləcək. Buna səbəb onun futbol tarixində ən qısa vaxtda penta-trikə imza atmasıdır. Polşalı hücumçu Almaniya çempionatının yeddinci turunda «Volfsburq» komandası ilə oyunun ikinci hissəsində meydana çıxaraq doqquz dəqiqə ərzində rəqib qapısına beş qol vurub.





«Real Madrid» futbol klubunun ulduz futbolçusu Kriştiano Ronaldo 4-cü dəfə «Qızıl Buts» mükafatına layiq görülüb. Bununla da otuz yaşlı portuqaliyalı yeni rekorda imza atıb. Bundan əvvəl isə o, İspaniya çempionatında 35 oyunda 48 qol vurmaqla klub tarixinin ən məhsuldar oyunçusu adına yiyələnmişdi.

mozaika

tarixda bu hafta

# 18 Oktyabr



## Azərbaycanın Dövlət Müstəqilliyi Günü

Ötən əsrin 90-cı illərinin əvvəllərində ideoloji böhran həddinə çatan SSRİ-nin demək olar ki, əksər respublikalarında millətlərin və xalqların azadlıq hərəkatı başladı. İmperiyanın siyasi beyin mərkəzi sovet hərb maşınının köməyi ilə müxtəlif bölgələrdə, o cümlədən Bakıda qanlı qırğınlar törətməklə SSRİ-yə süni nəfəs verməyə çalışırdı. Lakin bu mümkün olmadı. 1991-ci ilin avqustunda İttifaqın ləğv edilməsi haqqında qərar verildi və Sovetlər Birliyi dünya xəritəsindən silindi. SSRİ-yə daxil olan digər müttəfiq respublikalar kimi, həmin il oktyabrın 18-də Azərbaycan Ali Soveti də dövlət müstəqilliyi haqqında Konstitusiya aktı qəbul etdi və suveren dövlət kimi Azərbaycan Respublikası dünya birliyinə daxil oldu.

Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, Azərbaycan özünün əsl müstəqilliyini ümummilli lider Heydər Əliyevin qayıdışından sonra əldə etdi. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gələn ulu öndərin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Beləliklə, müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttinə qədəm qoydu. 1993-cü ildən başlayaraq dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən işlər və atılan məqsədyönlü addımlar bugünkü uğurlarımızın ən etibarlı təməli oldu. Bir sözlə, əgər müstəqillik, Azərbaycanın suveren dövlət kimi mövcud olması tarixi zərurətdən irəli gələn hadisə idisə, Azərbaycanın müstəqilliyinin əbədiliyi və dönməzliyi ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlı olan müasir tariximizin danılmaz faktıdır.

araşdırma

# Qocalıq əlaməti

Son vaxtlar alimlər tez-tez belə bir fikir səsləndirirlər: «qocalıq gəncləşir». Statistikaya görə, qocalığın ilk əlamətləri artıq 35 yaşda təzahür edir ki, bu da XX əsrin sonlarında olduğundan 15 il azdır.

Həkimlər tez yorulub əldən düşməyi və dalğınlığı, yəni beyin hüceyrələrinin oksigen aclığını qocalmanın ilk əlaməti sayırlar. Hesab edilir ki, unutqanlıq və diqqətsizlik yalnız ahıllara xas xüsusiyyətdir. Həqiqətən də başgicəllənməsi və dalğınlıq çox vaxt beyin hüceyrələrində qan dövranının pozulması nəticəsində yaranan degenerativ dəyişikliklərin göstəricisidir. Belə halların əmələ gətirdiyi damarların qocalması prosesi 35 yaşında, hətta daha erkən başlaya bilər.

Çoxları başgicəllənməsinə və gözümüzün qarşısında peyda olan qara nöqtələrə məhəl qoymur. Təəssüf ki, belə yanaşma beyin toxumalarının oksigenlə təchizatını bərpa etmir. Hüceyrələrin hipoksiyası isə tədricən qocalma əlamətlərinin güclənməsinə gətirib çıxarır. Stress, alkoqol və nikotinlə zəhərlənmə, xroniki yuxusuzluq nəticəsində baş ağrıları, nəqliyyatda ürəkbulanma tutmaları, bəzən panik hücumlar yaranır.

İnsanlar, adətən, «möcüzə yaradan» preparatlara üz tutaraq, bu bəlanı bir həblə dəf etməyə çalışırlar. Damarların vaxtından əvvəl qocamasının qarşısını almaq, parkinson xəstəliyi, demensiya kimi problemlərdən yaxa qurtarmaq, beynin işemik xəstəliyini, serebral arteriosklerozun, beyində qan dövranının pozulması nəticəsində əmələ gələn digər xoşagəlməz fəsadların qarşısını almaq üçün çox az insan həkimə müraciət edir. Halbuki bu cür xəstəliklərin qarşısını ilkin mərhələdə almaq öz real nəticəsini verə bilər.



faydalı

# Çaydanı ərpdən təmizləmək üçün...

- **Limon turşusu**
  Çaydan 2/3 həcmində soyuq su ilə doldurulur və ora limon turşusu əlavə edilir (1 litr suya 1 xörək qaşığı limon turşusu hesabı ilə). Su 5 dəqiqə qaynadılır. Sonra çaydanın qapağını götürüb sirkələyirsiniz. Çaydanı bir gecə saxlayıb, səhər yaxşıca yumaq lazımdır. Çaydan kifayət qədər təmizlənməsə, bunu bir daha təkrar etmək olar.
- **Sirkə turşusu**
  Başqa bir üsul sirkə turşusundan istifadədir. 2-2,5 litr suya 100 qram 9%-lik sirkə turşusu tökmək olar. Məhlulu 15-20 dəqiqə qaynadandan sonra boşaldıb, çaydanı təmiz su ilə bir neçə dəfə yaxalamaq, təmiz su ilə qaynadıb boşaltmaq lazımdır.
- **Qazlı içkilər**
  Son illər bəzi evdar xanımlar ərp əleyhinə «Fanta», «Kola», «Sprayt» kimi qazlı içkilərdən istifadə etməyə üstünlük verirlər. Bu üsulda qeyri-adilik yoxdur - həmin içkilərin tərkibində limon şirəsi var. Onu çaydana tökməzdən əvvəl qazı mümkün qədər çıxarılmalıdır. İçki çaydanın yarısına qədər əlavə edilir və 5-10 dəqiqə qaynadılır. Bir gecə çaydanda qalıb soyuyandan sonra atılır və yaxşı-yaxşı yaxalanır. Ərpdən əsər-əlamət qalmayacaq.

**Bir şeyi unutmayın:** hansı üsuldan istifadə etsəniz, çaydanı bir neçə dəfə yaxalayın, əks halda, kimyəvi qalıqlar zəhərlənmə verə bilər.

tam ciddi

# Körpənin doğulduğu ay...

*«Heliyon» jurnalında dərc olunmuş məqalədə yazılır ki, yayda doğulan qızların yaşa dolanda sağlam qalmaları üçün maksimal şansları var. Bu, çox güman ki, hamiləliyin ikinci trimestrində olan ananın orqanizmində D vitamininin səviyyəsinin artması ilə bağlıdır.*

Böyük Britaniyanın Kembric Universitetinin əməkdaşı Con Perri deyib: «Bu hadisənin nə ilə bağlı olduğunu hələ bilmirik. Biz həmin mexanizmləri açmalıyıq ki, onun nəticələrindən insanların sağlamlığının yaxşılaşması üçün istifadə edə bilək. Ola bilsin ki, burada D vitamininin rolu var və biz hamını bu vitaminin cinsi yetkinliyin erkən yaranmasına və uşaqların sağlamlığına təsirini öyrənməyə çağırırıq». Perri və onun həmkarları 450 min britaniyalı kişi və qadının iştirak etdiyi «UK Biobank» layihəsində doğum tarixini və insanın sağlamlığına aid müxtəlif göstəriciləri müqayisə ediblər.

Britaniyalı tibb işçiləri bu təşəbbüs çərçivəsində genetik faktorların, pəhrizin, ziyanlı vərdişlərin və həyat tərzinin orqanizmin müxtəlif xəstəliklərə meyilli olmasına necə təsir göstərdiyini açmağa cəhd ediblər.

İyun, iyul və avqustda doğulan insanlar yaşıdlarından bir neçə qram ağır və bir qədər hündürdürlər. Zərif cinsin nümayəndələri isə həm də daha gec böyüyür. Alimlər izah edirlər ki, bu, böyük yaşlarında və ömrün yaşlı çağında möhkəm sağlamlıq ilə assosiasiya olunur.

## Müdriklər deyib ki...

***«Bir uşağa «yalan danışma» deməyin, «düzgün danış» deyin: birincisində günahlandırmış, ikincisində isə yol göstərmiş olursunuz».***

***Viktor Hüqo (1802-1885)***

